

Doğma, canım-varlığım qədər sevdiyim
Azərbaycanım mənim qibləgahımdır

100 ilin qəzeti

ŞƏRQ QAPISI

Sayı: 43 (24.425)

26 oktyabr 2024-cü il, şənbə

www.serqqapisi.az

Təsisçi: Naxçıvan Muxtar Respublikasının Ali Məclisi

# Qələbənin adı: QUBADLI



## Prezident İlham ƏLİYEV:

“*Azərbaycan tarixdə heç vaxt belə parlaq Zəfər əldə etməmişdir, tarixdə heç vaxt indiki qədər güclü olmamışdır. Bizim gücümüz birliyimizdədir. Biz birlik nümayiş etdirmişik, əzmkarlıq nümayiş etdirmişik, qəhrəmanlıq nümayiş etdirmişik və bunun nəticəsində dəmir yumruqla düşmənin başını əzib öz doğma torpaqlarımızı azad etmişik.*
*Qarabağ Azərbaycandır!*
*Yaşasın Azərbaycan əsgəri!*
*Yaşasın Azərbaycan!*”

Səhifə 2

## Türkə Zəfər yaraşır



Səhifə 6

## Naxçıvan şəhərində yerləşən Heydər Əliyev Muzeyində “Heydər Əliyev və Azərbaycanın yeni enerji strategiyası” bölməsinin açılışı olub



Səhifə 5

## Dünya ictimaiyyətinin Azərbaycana hörmət və etimadı – COP29




Səhifə 3

# Qələbənin adı: QUBADLI



**28 il kimsəsiz, əzizləri olmadan yaşadı o dağlar. Yana-yana, yanıqlı bayatılar deyə-deyə dünyadan köçdü neçə-neçə insan. Beləcə, ömür keçdikcə bu yurd həsrətinin yarası qabıq qoydu. Amma sağalmadı, yurd, torpaq həsrəti ilə o yaranın qabığı tez-tez soyuldu. Dağın yamacındakı o yurdda, ocaqda tüstülənən odun sobasının üstündə dəmlənən yarmaaşında qaldı çoxlarının fikri, xəyalı. İllər sonra yeni-yeni yaşayış massivləri salındı, köhnə xəstəxana binalarında, dar otaqlarda, çadırlarda yaşayan qubadlılılar oraya köçürüldü. Amma şərait nə qədər yaxşı olsa da, xəyallar, arzular o qoşa dağların ətəyindəki yurdda qalmışdı. Elə o yurdun da fikri, xəyalı öz doğmalarının yanında idi. Nə qışı qış kimi gəlirdi, nə də baharda üzü gülürdü Qubadlının. Həsrətimizin bitəcəyi gün də yaxınlaşırdı ordumuzun gücü, dövlətimizin iqtisadi qüdrəti artdıqca.Və həmin gün gəldi, 44 günlük Vətən müharibəsində ürəyi Vətən eşqi ilə döyünən oğullar irəli atılaraq cənnətimizi geri almağa nail oldular.**

Biz bir olduq, güclənib düşmənin başına ildırım kimi çaxdıq. Azərbaycan xalqına Qaçaq Nəbi kimi xalq qəhrəmanı, Həcər kimi igid qadın, Valeh Bərşadlı kimi general, görkəmli ziyalılar bəxş edən Qubadlı əsl sahibinə qaytarıldı. Qubadlı şəhərinin işğaldan azad olunduğunu Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı oktyabrın 25-də özünün "X" hesabından elan edərək xalqı müjdələdi. Bütün Azərbaycan sevindi, amma aramızda elələri də var idi ki, onların sevinci tam başqa oldu. Bəli, onlar illərdir, öz yurdlarından zorla qovulub məcburi köçkün kimi vaxtilə qışın soyuğunda, yayın istisində çadırlarda yaşamağa məcbur olan insanlar idilər. Cəbrayıldan, Şuşadan, Zəngilandan, Qubadlıdan və işğalda olan başqa torpaqlarımızdan silah gücünə çıxarılanlar. İllərdir, "O gün gələcək", – deyib ordusuna, dövlətinə, dövlət başçısına ümid bəsləyənlər.

Artıq o ümid doğrulub, hamımızın arzusu yerinə yetib. İşğaldan qarış-qarış azad edilən torpaqlarımızın ən yüksək zirvəsinə sancılan bayrağımız hər birimizin ürəyini dağa döndərib. Yurdlarından qovulanda özləri ilə təkcə evinin açarlarını götürən, son nəfəsində bax, o sandıqda evimizin açarları var, onları qoruyun, yurdumuz alınanda qapımızı açarsınız deyənlərin arzusu çin olub.

"Bu gecə yuxuda evimizi görmüşəm, görəsən, nə vaxt bir də görəcəyəm həyatimizi? Qış da gəldi, görəsən, Şuşaya qar yağıbmı? Yaz gəldi, xarıbülbül açıbmı görəsən biz olmadan? Bəs nə vaxt çəkəcəyəm Qubadlının havasını ciyərlərimə?" – deyən neçə-neçə insanın sualları da bitdi artıq. Bu suallar da bitdi, yurd həsrəti də.

Ulu Öndərimizin layiqli davamçısı, Ali Baş Komandan cənab İlham Əliyevin Qubadlının mərkəzində əllərində üçrəngli bayrağımız göylərə çəkildiyi gün qubadlılıların həyatının ən gözəl günü oldu. Səfər zamanı dövlət başçısının Qəzyan kəndinin adının ermənicə yazıldığı lövhəni görərək onu söküdürüb tapdalaması düşmənin belini ikinci dəfə qırdı. Dövlət başçısı işğaldan azad olunan torpaqlara səfər edərək erməni terrorunu əyani şəkildə bütün dünyaya göstərdi. Bu gün həmin ərazilərdə aparılan işlər bu torpağın əsl sahibinin kim olduğunu da sübut edir. İşğaldan azad olunan şəhər və kəndlərimiz yeni, müasirtipli, həm də tarixi görkəmini saxlamaqla yenidən qurulur.

Prezident cənab İlham Əliyevin imzaladığı "Şərqi Zəngəzur iqtisadi rayonunda yerləşən Qubadlı şəhərinin Baş planının hazırlanması ilə bağlı tədbirlər haqqında" Sərəncamda Qubadlının təbiəti, tarixi keçmişinin nəzərə alınması dövlət başçısı tərəfindən xüsusi diqqətdə saxlanılıb. Bu barədə cənab Prezident rayon ictimaiyyəti ilə görüşündə də bildirmişdir: ***"Biz Qubadlı rayonunun bütün kəndlərini, o cümlədən Qubadlı şəhərini yenidən quracağıq. Qubadlı şəhərinin Baş planı hazırlanır və əminəm ki, yaxın aylarda təqdim ediləcək, o cümlədən Qubadlı ictimaiyyətinə təqdim ediləcəkdir. Əlbəttə ki, bu Baş plan ən müasir normalara uyğun olacaq və Qubadlının təbiəti və tarixi keçmişi də memarlıqda nəzərə alınacaq".***

Ölkə başçısının Qubadlıya səfərləri təməlqoyma və açılış mərasimləri ilə hər zaman yadda qalır. Xanlıq-Qubadlı yolunun təməlinin qoyulması, "Qubadlı" yarımstansiyasının və Dövlət Sərhəd Xidmətinin yeni hərbi hissə kompleksinin açılışları, Qubadlı şəhərinin Baş planı, rayon ərazisində yaradılacaq Zabuxçay və Bərgüşadçay Su anbarlarının layihələri ilə tanışlıq, İşğal və Zəfər muzeyləri kompleksinin, həmçinin "Azərişıq" ASC-nin 35 kilovoltluq yarımstansiyasının və Rəqəmsal İdarəetmə Mərkəzinin təməlqoyma mərasimləri bunlardan bir neçəsidir.

Bir qələm sahibinin ən böyük xoşbəxtliyi elinin, Vətəninin xoş günlərini görüb fərəh hissi ilə yazılar yazmasıdır. Biz son illərin ən xoşbəxt mətbuat işçiləriyik ki, artıq dörd ildir, işğaldan bir il də keçdi yox, qələbədən bir, iki il də keçdi yaza bilir, Qubadlı, Zəngilan, Şuşa azaddır deyə bilirik. Oğullarımız öz igidliyi ilə insanları öz doğma evlərinə qaytarmaqla yanaşı, zamanın axarını da dəyişib, Qələbə sözünü, azad olan torpaq kəlməsini də yazdılar tarixin səhifəsinə.

Bayram günlərimizin də sayı artıb, igid ordumuzun qazandığı qələbələrlə təqvimə yeni bayram günləri əlavə olunub. Azərbaycan xalqı bu unudulmaz tarixi günləri bayram günü kimi qeyd edir. Bu gün də həmin günlərdən biri – Qubadlı şəhəri günüdür. Qələbə, zəfər günü. İllər keçəcək, zaman dəyişəcək, amma xalqına Qələbə yaşadan oğullar, onların igidliyi bu Vətənin hər daşında, qayasında yaşayacaq. Çiçək olub Qubadlının torpağında bitəcək, Günəş olub Qarabağın azad səmasında doğulacaq, Ay olub qaranlıq gecələri nura qərq edəcək. Yüz illər keçsə də, hər səhər öz ocağında gözünü açan qubadlılı bu torpağı azad edən oğulları minnətdarlıqla xatırlayacaq.

**Ramiyə ƏKBƏROVA**



# Dünya ictimaiyyətinin Azərbaycana hörmət və etimadı – COP29



**Gələn ay Birləşmiş Millətlər Təşkilatının İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası (COP29) ilə əlaqədar bütün dünyanın diqqəti Azərbaycana fokuslanacaq. İki yüzə yaxın ölkənin belə bir yekdil qərarı qəbul etməsi ölkəmizin dünya siyasi arenasındakı nüfuzundan xəbər verməklə yanaşı, həm də ümumbəşəri ideyalar üzərində sağlam dünya naminə hədəflərinə doğru inamla irəlilədiyini göstərir. Eyni zamanda atılan bu addım 120 dövlətin dəstəyi ilə Qoşulmama Hərəkatına dörd il uğurla sədrlik edən, Qafqazda daimi sülh və sabitlik yaratmaq məqsədilə hərəkata keçən, sülhü, dialoqu və barışığı dəstəkləyən Azərbaycana hörmət və etimadın nəticəsidir. Prezident cənab İlham Əliyevin də dediyi kimi: *"COP29 beynəlxalq konfrans Azərbaycanda, Bakıda keçiriləcək... Beləliklə, Azərbaycana növbəti dəfə böyük etimad və böyük hörmət göstərilmişdir. Biz buna layiqik, biz apardığımız siyasət nəticəsində dünya miqyasında çox güclü mövqelərə sahib olmuşuq. Azərbaycana beynəlxalq aləmdə olan hörmət günbəgün artır və biz bu hörməti öz əməlimizlə, işimizlə, siyasətimizlə qazanmışıq".***

COP29-un Azərbaycanda təşkilini şərtləndirən bir sıra əhəmiyyətli nüanslar diqqəti çəkir. Qərarı imzalayan, tərəfləri düşündürən ən vacib məqam, ilk növbədə, təbii ki, belə bir mötəbər tədbirin yüksək səviyyədə təşkili məsələsidir. Bu xüsusda onu qeyd etmək olar ki, Azərbaycan indiyə kimi "IV İslam Həmrəyliyi Oyunları 2017", "Avroviziya Mahnı Müsabiqəsi", "Bakı-2015" birinci Avropa Oyunları", "Beynəlxalq Astronavtika Konqresi" və "Formula 1" kimi beynəlxalq səviyyəli tədbirlərin timsalında əsl ev sahibliyi nümunəsi yarada bilib. Məhz qazanılan geniş təcrübənin nəticəsidir ki, COP29-a ev sahibliyi statusu məsələsində də Azərbaycan bütün dünya ölkələri tərəfindən birmənalı şəkildə dəstək aldı. İkinci və ən əsas nüans isə konfransın mövzusu, məqsədi və hədəfləridir, yəni qlobal iqlim dəyişiklikləri ilə mübarizə, iqlim fəaliyyətini irəlilətmək, tərəf olmayan maraqlı tərəflərin fəal iştirakını təşviq etmək, iqlim dəyişmələri ilə bağlı ambisiyaları artırmaq və fəaliyyətə təkan verməkdir ki, ölkəmizin illərdir, bu sahədə rellaşdırdığı və icrası davam edən, nəzərdə tutulan sanballı layihələr kifayət qədərdir. Buna ətraf mühitin qorunması ilə bağlı qanunvericilik bazasının təkmilləşdirilməsi, ictimai nəzarətin gücləndirilməsi, müxtəlif adlarda eko, təmizlik, ağacəkmə aksiyalarının, kütləvi iməciliklərin keçirilməsini, "Yaşıl dünya naminə həmrəylik ili" çərçivəsində, eləcə də fərqli dövrlərdə ayrı-ayrı beynəlxalq təşkilatlardan, ali tribunalardan ünvanlanan çağırışları aid edə bilərik.

COP29-un məqsəd və hədəflərinə toxunanda Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 2 fevral tarixli Sərəncamı ilə təsdiq olunan "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər"in icrasına da diqqət yönəltmək lazımdır. Bu zaman növbəti onillikdə ölkənin sosial-iqtisadi inkişafına dair beş Milli Prioritetdən biri kimi müəyyən olunan "təmiz ətraf mühit və "yaşıl artım" ölkəsi" prioritetini əsas götürmək gərəkdir. Həmin prioritet üzrə reallaşdırılan tədbirlər sırasında, xüsusilə "yaşıl enerji"yə keçid məsələsi qlobal iqlim dəyişiklikləri, onların təsirlərinə qarşı mübarizə tədbirlərinə dair effektiv istiqamət hesab edilə bilər. Əminliklə demək olar ki, Prezidentin *"Qarabağ, Şərqi Zəngəzur və Naxçıvanda "yaşıl enerji" mənbələrinin yaradılması bütün bölgəyə fayda verəcək"* ideyası üzərində artıq səmərəli fəaliyyət təşkil olunub, bir sıra tanınmış xarici şirkətlərlə əməkdaşlıq əlaqələri qurulub. Ötən dövrdə Kəlbəcər və Laçın rayonlarında su elektrik stansiyalarının tikintisi, eləcə də Naxçıvanda bərpa olunan enerji mənbələrinə dair mövcud infrastruktur, muxtar respublikada "yaşıl enerji" istehsalı üçün dövlət tərəfindən 1000 hektar ərazinin ayrılması və bunlara müvafiq tədbirlərin icrası ölkəmizi öz hədəflərinə hər ötən gün daha da yaxınlaşdırır. Nümunə üçün qeyd edə bilərik ki, əvvəlki illərlə müqayisədə ötən il Azərbaycanda bərpa olunan enerji mənbələrinin gücü 373,6 meqavat artıb. Naxçıvandakı stansiyaların hazırkı generasiya gücü isə 244.8 MVt-dır və yaxın illərdə 1500 MVt güc əlavə olunacağı nəzərdə tutulur. Bu, o deməkdir ki, Naxçıvanda enerji istehsalı 6 dəfə artacaq və bu enerjinin Türkiyə vasitəsilə Avropaya ixracı da qarşıda duran prioritet vəzifədir. Oktyabrın 11-də Bakıda Pre-COP29-un ikinci günü çərçivəsində keçirilən panel sessiyasında Azərbaycanın energetika naziri Pərviz Şahbazov da sözügedən məsələyə xüsusi diqqət çəkərək bildirib ki, Qarabağ, Şərqi Zəngəzur və Naxçıvanda "yaşıl enerji zonaları"nın yaradılması xalis sıfıra ümummilli keçidin əsasını təşkil edir. 2030-cu ilə qədər 7 giqavat "yaşıl enerji" istehsal etmək planlaşdırılır ki, bunun da 70 faizi ixrac ediləcək. Nazir Azərbaycanın 3 "yaşıl" dəhlizin, o cümlədən "Black Sea Energy" sualtı elektrik kabeli layihəsinin yaradılmasının təşəbbüskarlarından biri olduğunu vurğulayaraq bu "yaşıl enerji" dəhlizlərinin daha geniş coğrafiyada – Mərkəzi Asiyadan Avropaya qədər "yaşıl enerji" keçidinə mühüm töhfə verəcəyini deyib.

"Yaşıl enerji"yə keçid, iqlim dəyişiklərinin təsirlərinə qarşı mübarizəyə dair tədbirlər barədə onu da vurğulamaq yerinə düşər ki, 1990-cı illə müqayisədə 2030-cu ilə qədər istixana qazlarının miqdarının 35, 2050-ci ilə qədər isə 40 faiz azaldılmasını hədəfləyən Azərbaycan 2050-ci ilə kimi Qarabağ, Şərqi Zəngəzur və Naxçıvan iqtisadi rayonlarını "sıfır emissiya" zonasına çevirmək istəyir. Və elə bu xüsusda COP29 öncəsi Naxçıvan Muxtar Respublikasında bir gündə 130 000 kubmetr həcmində təbii qaza qənaət edilməsi də real potensialın xəbərçisidir. Belə ki, Dövlət Energetika Xidmətinin yaydığı rəsmi məlumata görə cari il oktyabrın 11-də muxtar respublikanın 947 508 Kv/saat elektrik enerjisinə tələbatı tam "yaşıl enerji" hesabına ödənilib. Digər günlərlə müqayisədə, təqribən, 130 min kubmetr həcmində təbii qaza qənaət edilib, həmin gün karbon emissiyası sıfıra düşüb...

Ölkə Prezidenti cənab İlham Əliyevin COP29-a ev sahibliyi edəcək Bakı Olimpiya Stadionunda görülən işlərlə mütəmadi olaraq yerində maraqlanması, ərazidə yaradılmış infrastruktur və qurğular, informasiya texnologiyaları və təhlükəsizliyi sahəsində icra olunan tədbirlər, məkanın enerji ehtiyaclarının "yaşıl enerji" mənbələrindən qarşılanması üçün tətbiq edilən həllər konfransa ciddi hazırlıqdan xəbər verir. Əminik ki, görülən bütün işlər, xüsusilə də konfransın hədəflərinin ölkəmizin hədəfləri ilə üst-üstə düşməsi, qazanılmış zəngin təcrübə sayəsində Birləşmiş Millətlər Təşkilatının İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası effektiv nəticələr verəcək və bütün dünya daha çox neft-qaz ölkəsi kimi tanınan Azərbaycanın bu istiqamətdəki gücünə də yaxından bələd olacaq. Ölkə başçısının da dediyi kimi: ***"Mən şübhə etmirəm ki, COP29 beynəlxalq konfransını da biz yüksək səviyyədə keçirəcəyik, bu, ölkəmizin, xalqımızın növbəti böyük uğuru olacaq. Eyni zamanda Azərbaycan neft-qaz ölkəsi kimi bu sahədə də özünü göstərəcəkdir və dünyada hər kəs bir daha görəcək ki, bizim gündəliyimiz "yaşıl enerji" ilə bağlıdır. "Yaşıl enerji" növlərinin yaradılması və "yaşıl enerji"nin dünya bazarlarına nəqli hazırda bizim enerji siyasətimizin prioritetidir. Bu, reallıqdır və bütün dünya bunu bir daha görəcək".***

**Nail ƏSGƏROV**






**Azərbaycan multilateralizm prinsipləri əsasında reallaşdırdığı çoxtərəfli diplomatiya ilə aparıcı dünya ölkələri və təşkilatlarla sıx əlaqələr formalaşdıraraq sülhə, dialoqa, əmin-amanlığa xidmət missiyasını müvəffəqiyyətlə yerinə yetirir. 120 dövlətin dəstəyi əsasında Qoşulmama Hərəkatına dörd il uğurlu sədrlik etməklə beynəlxalq münasibətlərin möhkəmlənməsinə mühüm töhfə verən ölkəmizin TDT və MDB-yə üzv dövlətlərlə, xüsusilə də Türkiyə, Rusiya ilə yaxınlığı regional nüfuzunun kifayət qədər artmasına səbəb olub. Prezident cənab İlham Əliyevin uğurlu diplomatiyası sayəsində son dövrlərdə güclənən, qarşılıqlı etimad və hörmətə söykənən Azərbaycan və ŞƏT, Azərbaycan və BRICS əlaqələri də uzaq gələcəyə hesablanmış geniş perspektivlər vəd edir. Oktyabrın 23-24-də dövlət başçısının Kazanda keçirilən BRICS sammitində iştirakı, "Outreach"/"BRICS+" formatının ilk plenar iclasında çıxışı, sammit çərçivəsində keçirilən rəsmi görüşlər, imzalanan bəyannamə də bu təşkilatın, xüsusilə də quruma sədrlik edən Rusiyanın ölkəmizə qarşı birmənalı hörmət və dəstəyinin ifadəsidir.**

# Azərbaycan BRICS üçün ticarət dövriyyəsi, logistika dəhlizləri baxımından mühüm mövqedədir

Bildiyimiz kimi, BRICS 2006-cı ildə beş sürətlə inkişaf edən – Braziliya, Rusiya, Hindistan, Çin və Cənubi Afrika ölkələrinin birliyindən yaranan beynəlxalq əhəmiyyətə malik təşkilatdır. Hazırda 10 üzvü olan qurumun nüfuzu həmin respublikaların siyasi gücü ilə yanaşı, maddi, təbii sərvətləri, iqtisadi çəkisi, ticarət imkanları ilə ölçülür. Nüfuzlu "The Economist Group"un araşdırma qrupu "Economist Intelligence Unit"in ekspertlərinin qənaətinə görə, hazırda BRICS+ ölkələrinin iqtisadiyyatının həcmi 20 trilyon, G7 ölkələrinin iqtisadiyyatının cəmi isə 40 trilyon dollar təşkil edir. Müqayisə üçün qeyd etmək olar ki, 10 il əvvəl bu fərq 3-4 dəfə idi. Proqnozlara görə, aradakı nisbət azalmağa və bərabərləşməyə doğru gedir. Mütəxəssislərin rəyinə əsasən 2050-ci ilə qədər BRICS-ə daxil olan üzv ölkələrin ümumi iqtisadiyyatı dünyanın ən zəngin ölkələrinin cəmi iqtisadiyyatlarını geridə qoyacaq. Nəzərə alsaq ki, günümüzdə iqtisadi potensial, maddi resurs müstəqil siyasət yürütməkdə, diktə etməkdə vacib faktordur, belə olan halda BRICS-in yeni dünya düzəninin formalaşmasına təsirinin böyük olduğunu, gələcəkdə daha mühüm beynəlxalq təşkilata çevriləcəyini əminliklə söyləyə bilərik. Təsadüfi deyil ki, hazırda Azərbaycan da daxil olmaqla, ümumilikdə, 30-a yaxın ölkə çoxtərəfli siyasətləri əlaqələndirən vahid geosiyasi bloka çevrilən BRICS-ə üzvlük və ya tərəfdaş dövlət statusu almaq istəyir. Bu mənada, Kazan sammitinə 36 ölkədən və 6 beynəlxalq təşkilatdan nümayəndə heyətlərinin, o cümlədən 22 dövlət başçısının qatılması, BMT-nin Baş katibi Antonio Quterreşin iştirakı özlüyündə bu quruma etimadın və gələcəyinə inamın ifadəsidir.

"Ədalətli qlobal inkişaf və təhlükəsizlik üçün çoxtərəfliliyin gücləndirilməsi" şüarı ilə keçirilən, regional münaqişə və müharibələrin təhlillərinin aparıldığı, müzakirə edildiyi Kazan sammiti Qərbin iqtisadi, siyasi təzyiqlərinə məruz qalan həm Rusiya, həm də Azərbaycan üçün öz siyasi iradəsini, iqtisadi potensialını göstərmək baxımından vacib platforma rolunu oynadı. Ölkəmiz son illərdə mühüm beynəlxalq nəqliyyat layihələrinin icrasına verdiyi töhfələr sayəsində dünya əhalisinin, təxminən, yarısını və qlobal iqtisadiyyatın 1/4-dən çoxunu təşkil edən nəhəng iqtisadi güc mərkəzi sayılan BRICS-ə üzv olmağa çox yaxındır. Şübhəsiz ki, Azərbaycanın təşkilatda əsas söz sahibləri sayılan Rusiya və Çinlə yaxınlığı, etibarlı ticarət tərəfdaşlığı da bu məsələdə öz rolunu oynayır və oynayacaq da. Bu xüsusda bir faktı da qeyd etmək yerinə düşər ki, ölkəmizin 2023-cü ildə xarici ticarət dövriyyəsinin beşdə biri, təxminən, 20,8 faizi BRICS üzvlərinin payına düşüb. Məhz bütün bu amillərin nəticəsidir ki, sammitdə Rusiya Prezidenti Vladimir Putin logistika dəhlizlərinin inkişafında Azərbaycanın rolunun çox vacib olduğunu diqqətə çatdırdı, ölkəmizin Rusiya və digər BRICS ölkələri ilə artan ticarət dövriyyəsinin həcminin böyük əhəmiyyət kəsb etdiyini dedi. Prezident İlham Əliyev sammitin "Outreach"/"BRICS+" formatının ilk plenar iclasında çıxışında öz coğrafi mövqeyindən istifadə edən və müasir infrastruktur yaradan Azərbaycanın Avrasiyanın mühüm nəqliyyat və logistika mərkəzlərindən birinə çevrildiyini vurğuladı. Sitat: ***"Şərq-Qərb" və "Şimal-Cənub" nəqliyyat dəhlizləri bizim ərazimizdən keçir. Bu nəqliyyat yollarının Azərbaycan ərazisində olan bütün seqmentləri uğurla fəaliyyət göstərir. Hazırkı məqamda ərazimizdən yük axınının kəskin artmasını nəzərə alaraq, biz bu dəhlizlərin ötürücülük imkanlarının artırılmasına əlavə vəsait lər yatırırıq".***

Kazan sammiti həm də Azərbaycanın gələn ay ev sahibliyi edəcəyi COP29-un təşkilinə göstərilən dəstəyin, stimulun növbəti ifadəsinə çevrildi. Belə ki, BRICS üzvü olan ölkələrin dövlət başçıları COP29-un Bakıda keçirilməsini dəstəklədiklərini bir daha açıq şəkildə bildirdilər. Sammitin Yekun Bəyannaməsində qlobal problemlərin həllinə xidmət edən bu mötəbər tədbirin uğurla keçirilməsinə sadiqlik ifadə olundu: *"Biz Azərbaycanda konfransın uğurla keçirilməsinə sadiqik və təsirlərin yumşaldılması, uyğunlaşdırılması, itkilərin və zərərin bərpası sahələrində milli səviyyədə müəyyən edilmiş cari və gələcək fəaliyyət və məqsədlərə nail olmaq üçün əsas vasitə kimi inkişaf etməkdə olan ölkələr üçün iqlimin maliyyələşdirilməsi üzrə mənalı nəticələr gözləyirik".* Anti-Azərbaycan siyasəti aparan, dövlətimizin reallaşdırdığı uğurlu layihələrə, xüsusən də gələn ay keçiriləcək bu mötəbər tədbirə kölgə salmağa cəhd göstərən müxtəlif siyasi dairələrə tutarlı cavab olan bu bəyanat bir daha təsdiqlədi ki, Azərbaycan COP29-un sədri olaraq dünya iqlim diplomatiyasını aktiv şəkildə formalaşdırmağa, Qlobal Cənub və Qlobal Şimal ilə fəal, faydalı dialoq aparmağa qadirdir.

Ümumilikdə, BRICS sammiti Azərbaycanın mühüm geosiyasi mövqeyi, nəqliyyat-logistika imkanları baxımından faydalı, etibarlı ölkə olduğunu bir daha təsdiqlədi. Prezident cənab İlham Əliyev qəti şəkildə ölkəmizin beynəlxalq münasibətlərdə çoxtərəflilik prinsipinin fəal tərəfdarı olduğunu vurğulayaraq bunun real nəticələr verdiyini bildirdi: ***"Azərbaycan beynəlxalq münasibətlərdə çoxtərəflilik prinsipinin fəal tərəfdarıdır, bu, 2020-2023-cü illərdə Qoşulmama Hərəkatına sədrlik dövründə bizim tərəfimizdən əyani şəkildə nümayiş etdirilib. Dördillik sədrlik dövründə Qoşulmama Hərəkatı özünün institusional inkişafında böyük addım atıb, beynəlxalq münasibətlər sistemində öz yerini xeyli möhkəmləndirib. Hərəkata uğurlu sədrlik təcrübəsi bu gün bizə Asiyada Qarşılıqlı Fəaliyyət və Etimad Tədbirləri üzrə Müşavirənin hazırkı sədri qismində kömək edir".***

**Nail ƏSGƏROV**



# Ali Məclisin iclası keçirilib





Oktyabrın 21-də Ali Məclis sədrinin birinci müavini Bəxtiyar Məmmədovun sədrliyi ilə Ali Məclisin payız sessiyasında növbəti plenar iclası keçirilib.

Bəxtiyar Məmmədov iclasın gündəliyinə iki məsələnin – “Naxçıvan Muxtar Respublikası Ali Məclisi deputatının statusu haqqında” Naxçıvan Muxtar Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Qanun layihəsi (birinci oxunuş) və “Normativ hüquqi aktlar haqqında” Naxçıvan Muxtar Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Qanun layihəsinin müzakirəsinin daxil edildiyini bildirib.

Gündəlikdə duran birinci məsələ ilə bağlı Bəxtiyar Məmmədov qeyd edib ki, “Naxçıvan Muxtar Respublikası Ali Məclisi deputatının statusu haqqında” Naxçıvan Muxtar Respublikası Qanununun “Azərbaycan Respublikası Milli Məclisi deputatının statusu haqqında” Azərbaycan Respublikası Qanununun müddəalarına uyğunlaşdırılması məqsədilə müvafiq qanunda dəyişikliklər edilməsi barədə qanun layihəsi hazırlanıb. Layihə Hüquq siyasəti komitəsinin 17 oktyabr 2024-cü il tarixli iclasında müzakirə olunub.

Qanun layihəsi barədə Hüquq siyasəti komitəsinin sədri Əjdər Əliyev məlumat verib, komitənin rəyini diqqətə çatdırıb.

İqtisadi siyasət komitəsinin sədri Emin Şıxəliyev, Humanitar siyasət komitəsinin sədri Ülkər Bayramova, Sosial siyasət komitəsinin sədri Nuray Əliyeva və İqtisadi siyasət komitəsinin üzvü Pərvin Nəcəfsoy müvafiq qanuna təklif edilmiş dəyişikliklərin əhəmiyyətini vurğulayıblar.

Sonra qanun birinci oxunuşda qəbul edilib.

“Normativ hüquqi aktlar haqqında” Naxçıvan Muxtar Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Naxçıvan Muxtar Respublikasının Qanun layihəsinin müzakirəsi zamanı bildirilib ki, qanun layihəsi “Normativ hüquqi aktlar haqqında” Azərbaycan Respublikasının Konstitusiya Qanununun və “Media haqqında” Azərbaycan Respublikası Qanununun müddəalarına uyğunlaşdırılma məqsədilə hazırlanıb. Ali Məclisin deputatlarına təqdim edilmiş layihə Hüquq siyasəti komitəsinin 17 oktyabr 2024-cü il tarixli iclasında müzakirə olunub.

Qanun layihəsi barədə Hüquq siyasəti komitəsinin sədri Əjdər Əliyev məlumat verib, sədrlik etdiyi komitənin rəyini diqqətə çatdırdıqdan sonra qanun səsə qoyularaq qəbul olunub.

Bununla da yeddinci çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin payız sessiyasının iclası başa çatıb.

# Ali Məclisin payız sessiyasının növbəti iclası





Oktyabrın 25-də Ali Məclis sədrinin birinci müavini Bəxtiyar Məmmədovun sədrliyi ilə Ali Məclisin iclası keçirilib.

Bəxtiyar Məmmədov iclasın gündəliyində duran məsələnin ikinci oxunuşda olan “Naxçıvan Muxtar Respublikası Ali Məclisi deputatının statusu haqqında” Naxçıvan Muxtar Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Naxçıvan Muxtar Respublikasının Qanun layihəsinin müzakirəsi olduğunu bildirib.

Qanun layihəsinin ikinci oxunuşda müzakirəsi ilə əlaqədar Hüquq siyasəti komitəsinin sədri Əjdər Əliyev məlumat verib, komitənin rəyini diqqətə çatdırıb.

Qanun layihəsi oxunduqdan sonra səsə qoyularaq ikinci oxunuşda qəbul edilib.

Ali Məclis sədrinin birinci müavini Bəxtiyar Məmmədov qeyd edib ki, Daxili Nizamnaməyə əsasən ikinci oxunuşda qəbul edilmiş qanun layihəsi müzakirə zamanı müəyyənləşdirilmiş daxili ziddiyyətlərin aradan qaldırılması və redaktə edilmək üçün aparıcı komitəyə qaytarılır.

Daxili Nizamnamənin müvafiq maddəsinə uyğun olaraq layihə üçüncü oxunuş üçün hazırlanması məqsədilə Hüquq siyasəti komitəsinə qaytarılıb.

***

Həmin gün Ali Məclis sədrinin birinci müavini Bəxtiyar Məmmədovun sədrliyi ilə Ali Məclisin növbəti iclası keçirilib.

Gündəlikdə duran məsələ – “Naxçıvan Muxtar Respublikası Ali Məclisi deputatının statusu haqqında” Naxçıvan Muxtar Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Naxçıvan Muxtar Respublikasının Qanun layihəsinin müzakirəsi ilə bağlı Bəxtiyar Məmmədov bildirib ki, Ali Məclisin Hüquq siyasəti komitəsi qanun layihəsinə yenidən baxaraq üçüncü oxunuşa təqdim edib. Layihədə hər hansı dəyişiklik yoxdur.

Hüquq siyasəti komitəsinin sədri Əjdər Əliyev qanun layihəsi barədə məlumat verdikdən sonra qanun səsə qoyularaq qəbul olunub.

Bununla da iclas başa çatıb.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**

# Naxçıvan şəhərində yerləşən Heydər Əliyev Muzeyində “Heydər Əliyev və Azərbaycanın yeni enerji strategiyası” bölməsinin açılışı olub








Oktyabrın 23-də Naxçıvan şəhərində yerləşən Heydər Əliyev Muzeyində “Heydər Əliyev və Azərbaycanın yeni enerji strategiyası” bölməsinin açılışı olub.

Öncə tədbir iştirakçıları Ulu Öndərin abidəsini ziyarət edib, abidənin önünə gül dəstələri düzüblər.

Açılış mərasimi çərçivəsində “Enerji siyasəti” mövzusunda dəyirmi masa təşkil olunub.

Tədbirdə çıxış edən Naxçıvan Muxtar Respublikası Baş nazirinin birinci müavini Elşad Əliyev müasir müstəqil Azərbaycanın qurucusu, Ümummilli Lider Heydər Əliyevin müdrik siyasəti sayəsində 1990-cı ildə Naxçıvan Muxtar Respublikasının ali qanunverici orqanında ilk dəfə üçrəngli bayrağımızın dövlət rəmzi olaraq qəbul edilməsinin ölkəmiz və xalqımız üçün olduqca mühüm tarixi əhəmiyyət kəsb etdiyini bildirib.

Ulu Öndərin fəaliyyətinin bütün dövrlərində Naxçıvanın dayanıqlı tərəqqisinə diqqət ayırdığını söyləyən Elşad Əliyev blokada şəraitində olmasına baxmayaraq, Naxçıvan Muxtar Respublikasının davamlı inkişafı, əhalinin rifah halının daha da yaxşılaşdırılması istiqamətində zəruri addımlar atıldığını bildirib.

SOCAR-ın Kommunikasiya məsələləri üzrə icraçı direktoru Aygün Hüseynova 2024-cü ilin Naxçıvan Muxtar Respublikasının yaranmasının 100-cü, “Əsrin müqaviləsi”nin imzalanmasının 30-cu, “Neft Daşları”nın yaranmasının isə 75-ci ildönümləri ilə əlamətdar olduğunu qeyd edib, bu xüsusda SOCAR-ın təşəbbüsü ilə Naxçıvanda Heydər Əliyev Muzeyində “Heydər Əliyev və enerji strategiyası” bölməsinin açılmasının önəmini vurğulayıb.

İcraçı direktor Aygün Hüseynova Ümummilli Liderin müəyyənləşdirdiyi enerji strategiyasının Azərbaycanın hərtərəfli inkişafındakı rolundan, Ulu Öndərin neft-qaz sənayemizin inkişafına, neftçilərə göstərdiyi yüksək qayğıdan bəhs edib.

Ulu Öndər Heydər Əliyevin daim Naxçıvan Muxtar Respublikasının davamlı inkişafına xüsusi diqqət ayırdığını bildirən AMEA Naxçıvan Bölməsinin sədri İsmayıl Hacıyev Ümummilli Liderin rəhbərliyi ilə Naxçıvanın enerji təhlükəsizliyinin, əhalinin dayanıqlı elektrik enerjisi ilə təmin edilməsi istiqamətində əsaslı tədbirlər görüldüyünü vurğulayıb.

Naxçıvan Muxtar Respublikası mədəniyyət nazirinin müavini, nazir vəzifəsini icra edən Həsən Seyidov Ümummilli Liderin Naxçıvan Muxtar Respublikasında mədəniyyət və incəsənətin inkişafına, tarixi-mədəni abidələrin qorunmasına daim böyük önəm verdiyini bildirib və bu sahələrdə görülən işlərdən danışıb.

Heydər Əliyev Muzeyinin fəaliyyəti barədə məlumat verən muzeyin direktoru Ramil Orucəliyev burada Ümummilli Liderin həyatı və ictimai-siyasi fəaliyyətinin müxtəlif dövrlərinə dair nümayiş olunan materialların, tarixi sənədlərin, nadir fotoların, Ulu Öndərə məxsus şəxsi əşyaların ziyarətçilər, tədqiqatçılar tərəfindən böyük maraqla qarşılandığını qeyd edib. Direktor, həmçinin “Heydər Əliyev və Azərbaycanın yeni enerji strategiyası” bölməsinin yaradılmasının muzeyin fondunun daha da zənginləşdirilməsinə önəmli töhfə verdiyini bildirib.

Sonra “Heydər Əliyev və Azərbaycanın yeni enerji strategiyası” bölməsinin açılışı olub.

SOCAR-ın təşəbbüsü ilə yaradılan bölmədə Ulu Öndər Heydər Əliyevin yeni neft strategiyasının icrasını, dahi şəxsiyyətin neft-qaz sənayemizin inkişafına, neftçilərə yüksək diqqətini əks etdirən nadir fotolar yer alıb.

Burada Ümummilli Liderin adını daşıyan 6-cı nəsil yarımdalma qazma qurğusunun, “Prezident Heydər Əliyev” tankerinin maketləri, “Əsrin müqaviləsi”nin surəti və digər maraqlı sənədlər nümayiş etdirilir.

Daha sonra qonaqlar muzeylə tanış olublar.



# Bir millət, iki dövlət

# Türkə Zəfər yaraşır



**Türkün qolu bükülməz, türkün qəddi əyilməz**

Orta Asiyanın ucsuz-bucaqsız çöllərində başlamışdı türk xalqının qəhrəmanlıq dastanı. Dünyada tayı-bərabəri olmayan igidlik göstərib İstanbulu dəniz sularını aşaraq fəth etmişdi türk əsgəri. 500 illik bir səltənətin ən sağlam təməli qoyulmuşdu həmin gün. Yarım era yaşayan Osmanlı imperiyası son nəfəsini I Dünya müharibəsində verdi. Belə ağır şəraitdə Tanrı türk xalqına Mustafa Kamal Paşanı ərməğan etdi. O bütün varlığı ilə Vətəninə bağlı vətənpərvər zabitlərlə birlikdə Türkiyənin qurtuluşu uğrunda savaşa başladı. Anadoludan başlayan azadlıq mübarizəsi böyük bir qəhrəmanlıq tarixi, bir xalqın küllərindən yenidən yaradılışı idi. Türk xalqı bir yox, üç düşmənlə birdən döyüşürdü. Bu həmin vaxtlar idi ki, qadınlar son yadigarı olan qızıl zinət əşyalarını, qocalar mirasını türk ordusuna bağışlayırdı. Qardaş Azərbaycandan, Pakistandan Türkiyəyə gələn yardımlarla ordu daha da güclənir, düşmənə sinə gərirdi. Atatürkün *"Vətənin hər qarışı qanımızla sulanmadıqca Vətən tərk olunmayacaq"* sözləri hər bir türk vətəndaşını döyüşə çağırdı. Bəzən ac-susuz, ayağında köhnə çarıqla, əliyalın döyüşdü türk əsgəri. Soyuq qış gecəsində buz heykələ dönüb şəhidlik şərbəti içdi, amma geri çəkilmədi.

1919-cu il mayın 19-da Qara dəniz sahilindəki Samsun şəhərindən başlanan mübarizə üç il çəkdi. Həmin ilin dekabrında Ankaraya gələn Mustafa Kamal Paşa bu şəhəri Türkiyə dövlətçiliyi uğrunda mübarizənin mərkəzi elan etdi. Cəmi bir il sonra Mustafa Kamal Paşa 1920-ci il aprelin 23-də Ankarada xalqın iradəsini təmsil edən Türkiyə Böyük Millət Məclisinin (TBMM) çağırılmasına nail oldu, başçılıq etdiyi Qurtuluş savaşı daha da genişləndi. 1921-ci ilin yanvarından başlayaraq qələbələr əldə edən türk ordusu həmin ilin avqustunda Sakarya savaşından zəfərlə çıxdı.

Türk qadını tarixboyu olduğu kimi, bu mübarizədə də öz kişisinin yanında dayanıb milli mübarizəyə öz töhfəsini verdi. Onlar səngərə mərmi, silah daşıyıb türkün qolunun bükülməz olduğunu, bu xalqın bir ölüb, min dirildiyini sübut etdilər. Tarix bir xalqın birliyinə, cəsurluğuna şahid oldu həmin illərdə. 1922-ci ilin avqustunda Mustafa Kamal Paşanın komandanlığı altında həyata keçirilən hücum əməliyyatı ilə Türkiyənin yunan ordusunun işğalı altında olan cənub-qərbi azad edildi. Mustafa Kamal Paşanın ətrafında birləşən xalq üç il davam edən mübarizəni qələbə ilə tamamlayıb düşməni Qara dənizin sularına qərq etdi. Öz əzəli-əbədi torpağını qorudu.

Həmin günlərdə bütün dünya türkün şanlı bayrağının əbədi olaraq göylərə yüksəlməsinə şahid oldu. 30 avqust Zəfəri ilə yeni dövlətin quruluşunun da təməli qoyuldu. 1923-cü il oktyabrın 2-də türk ordusu sonuncu işğalçı qoşunları – ingilis hərbi gəmilərini İstanbul ətrafından vurub çıxardı. 1923-cü il oktyabrın 29-da artıq dünya səhnəsindən çəkilən Osmanlı imperatorluğundan sonra yeni dövlətin – Cümhuriyyətin qurulması ümumtürk tarixində yeni səhifənin açılması idi. Həmin ilin oktyabrın 29-da Mustafa Kamal Paşa TBMM-də çıxış edərək Türkiyə Cümhuriyyətinin yarandığını elan etdi. Parlament Mustafa Kamal Paşanı ölkənin ilk prezidenti seçdi. Mustafa Kamal ölkənin bölünməzliyini və möhkəmlənməsini təmin etdi. 1932-ci ildə TBMM-in qərarı ilə Ona Atatürk adı verildi.

## Prezident İlham ƏLİYEV:

***"İkinci Qarabağ savaşından sonra Türkiyə-Azərbaycan qardaşlığı, birliyi daha da yüksək pilləyə qalxıb... hər yerdə Azərbaycan və Türkiyə bayraqları bir yerdə dalğalanır. Bu, ürəkdən gələn duyğulardır, bu, əcdadlarımızdan qalan mirasdır, onların vəsiyyətidir və bu, zəmanəmizin tələbidir... Biz hər zaman olduğu kimi, bir yerdəyik və bir yerdə olacağıq."***

**Çətin sınaqlara qalib gələn xalq**

Türkiyə 1940-cı illərin sonunda yeni siyasi dönəmə – real çoxpartiyalı sistemə qədəm qoydu. 1952-ci ildə NATO-ya daxil olmaqla Türkiyənin beynəlxalq nüfuzu artdı. 1961-ci ildə yeni Konstitusiya qəbul edildi. 60-70-ci illər Türkiyədə daxili siyasi çaxnaşmalar, millətçi qüvvələrin toqquşmaları ilə keçdi. 1974-cü ildə Kipr türklərinə qarşı qırğınlara son qoymaq üçün adaya qoşun yeridən Türkiyə beynəlxalq müstəvidə ciddi haqsız təzyiqlərlə üzləşdi.1980-ci ildən 2002-ci ilədək Türkiyə partiyaların qurduqları koalision hökumətlər tərəfindən idarə edilirdi. 2014-cü ilin 10 avqustunda Türkiyədə ilk dəfə prezident xalq tərəfindən ümumi səsvermə ilə seçildi. 2017-ci ildə keçirilən referendumla Türkiyənin dövlət idarəçiliyi qismən dəyişdi. Ölkə parlament idarəçiliyindən prezident üsul-idarəsinə keçdi, Baş nazir postu ləğv olundu.

Həmin illərdən bu günə kimi bir çox sınaqlardan çıxan türk xalqı 2016-cı ildə baş verən dövlət çevrilişinə cəhdin qarşısını tankların qarşısına əliyalın çıxaraq aldı. Bir daha türkün belinin əyilməz, qəddinin qırılmaz olduğunu sübut etdi. Qaranlıq bir gecədə ağır döyüş texnikalarının qarşısına çıxıb canını sipər edən türk xalqı bir daha Atatürkünə sədaqət nümayiş etdirdi. Onlar 1919-23-cü illərdə Anadoluda alovlanan Vətən eşqinin sönmədiyini sübuta yetirdi. Və həmin gün dünya bir daha əmin oldu ki, türkün şanlı bayrağı heç vaxt üfüqlərdən enməyəcək.

**Bir ananın iki oğlu**

Dünyada, bəlkə də, Türkiyə və Azərbaycan kimi bir-birinə yaxın dövlət yoxdur. Bizim münasibətlərimiz təkcə iki lider dövlət arasındakı rəsmi münasibətə dayanmır. Bu iki xalq bir-birinə qırılmaz tellərlə də bağlıdır. Onlar sevinəndə biz də sevinirik, biz kədərli olanda onlar da kədərlənir. Türkiyəni öz Vətəni bilib onun azadlığı üçün Çanaqqalada, Azərbaycanı öz doğma eli bilib Bakıda, Naxçıvanda can verən oğulların məzarları bu gün də qalmaqdadır. Azərbaycanlılar Vətəni üçün can verən türkiyəli, onlar isə Türkiyə üçün canını qurban edən azərbaycanlı əsgərləri heç vaxt unutmayacaq. Güclü Türkiyə güclü Azərbaycan, güclü Azərbaycan güclü Türkiyə deməkdir. Bunu iki qardaş ölkənin liderləri hər zaman xüsusi vurğulayırlar. Bunun ən bariz ifadəsi 2020-ci ilin 44 günlük Vətən müharibəsində, 2023-cü ildə Türkiyədə baş verən zəlzələ zamanı Azərbaycan-Türkiyə birliyi oldu. 2021-ci ilin 15 iyununda imzalanan Şuşa Bəyannaməsi isə bu birliyə tarixdə əbədi qalacaq möhür vurdu. İki dövlətin liderlərinin Naxçıvandakı görüşləri və qədim diyarın ən çətin günlərində qardaş ölkənin Naxçıvana qarşı mövqeyi tarix səhifələrinə qürurla yazılan anlardır.

Bu gün həmin gündür, Türkiyə Cümhuriyyətinin günü. Türk dünyasının qapısı Naxçıvandan qonşu, qardaş Türkiyənin başıqarlı dağlarına baxıram. Bu vüqarlı dağlar igid türk əsgərinin, Əli çavuşların 1918-ci ildə Vətənindən uzaqda, Sədərəkdə erməni quldurlarının qarşısında dayanıb canından keçməsinə şahid oldu, Bakıda doğulub Çanaqqalada Türkiyə dövləti üçün şəhadət şərbəti içən igid azərbaycanlının son sözünü dinlədi. Yüz illər keçsə də, bu tarixi həqiqətlər heç vaxt dəyişməyəcək və bu dostluğun, qardaşlığın, qəhrəmanlığın dastanını daş kitabələrdən oxuyacaq gələcək nəsillər.

**Ramiyə ƏKBƏROVA**



# Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatlarının 2024-cü ilin noyabr ayında vətəndaşların qəbulu cədvəli

| № | Deputat | Tarix və yer | Əlaqələndirici şəxslər və əlaqə nömrələri |
|---|---|---|---|
| 1. | 1 saylı Sədərək seçki dairəsi üzrə İsmayılov Mahir İslam oğlu | 14.11.2024, saat $10^{30}$, Sədərək rayonu, Sədərək kəndi, icra nümayəndəliyinin inzibati binası | İsmayılzadə Seymur Elbəyi oğlu, 070-335-67-05 |
| 2. | 2 saylı Dəmirçi seçki dairəsi üzrə Quliyeva Zeynəb Kərim qızı | 22.11.2024, saat $11^{00}$, Sədərək rayonu, Qaraağac kəndi, icra nümayəndəliyinin inzibati binası | Novruzov Elçin Abil oğlu, 060-569-45-73 |
| 3. | 3 saylı Maxta seçki dairəsi üzrə Şıxəliyev Emin Arif oğlu | 16.11.2024, saat $11^{00}$, Şərur rayonu Kürçülü kəndi, icra nümayəndəliyinin inzibati binası, 16.11.2024, saat $13^{00}$, Şərur rayonu Kürkənd kəndi, icra nümayəndəliyinin inzibati binası | Əhmədov Rəşad Məhəmməd oğlu, 050-593-57-08 |
| 4. | 4 saylı Yengicə seçki dairəsi üzrə Abbasov Əli Feyzulla oğlu | 04.11.2024, saat $16^{00}$, Şərur rayonu, Aralıq kəndi, Kənd mədəniyyət evi, 07.11.2024, saat $16^{00}$, Şərur rayonu, Qarxun kəndi, Kənd mədəniyyət evi, 25.11.2024, saat $16^{00}$, Şərur rayonu, Yengicə kəndi, icra nümayəndəliyinin inzibati binası | Nəcəfov Milad Niyaz oğlu, 060-201-11-91<br>Səfərli Elmurad Ələddin oğlu, 060-285-00-95 |
| 5. | 5 saylı Çomaxtur seçki dairəsi üzrə Nəcəfsoy Pərvin Vidadi qızı | 14.11.2024, saat $16^{00}$, Çomaxtur kəndi, icra nümayəndəliyinin inzibati binası, 20.11.2024, saat $15^{30}$, Xələc kəndi, icra nümayəndəliyinin inzibati binası | Nəcəfsoy Aqil Yediyar oğlu, 050-405-43-85 |
| 6. | 6 saylı Çərçiboğan seçki dairəsi üzrə Babayeva Aynur Arif qızı | 05.11.2024, saat $11^{00}$, Şərur rayon Ərəbyengicə kənd icra nümayəndəliyinin inzibati binası, 27.11.2024, saat $15^{00}$, Şərur rayon Çəmənli və Arpaçay kəndləri, Çəmənli kənd icra nümayəndəliyinin inzibati binası | Məmmədova Nuranə Arif qızı, 070-523-64-13 |
| 7. | 7 saylı Xanlıqlar seçki dairəsi üzrə Novruzov Azad Sevindik oğlu | 16.11.2024, saat $11^{00}$, Şərur rayonu, Xanlıqlar kəndi, icra nümayəndəliyinin inzibati binası, 23.11.2024, saat $11^{00}$, Şərur rayonu, Siyaqut kəndi, icra nümayəndəliyinin inzibati binası | Bağırov Turqay Faiq oğlu, 060-550-20-20 |
| 8. | 8 saylı Düdəngə seçki dairəsi üzrə Bayramov Mübariz Rəcəb oğlu | 29.11.2024, saat $15^{00}$, Şərur rayonu, Düdəngə kəndi, icra nümayəndəliyinin inzibati binası | Əhmədova Fatimə Hüseyn qızı, 060-209-99-93 |
| 9. | 9 saylı Mahmudkənd seçki dairəsi üzrə Şükürov Kamil Qəzənfər oğlu | 04.11.2024, saat $11^{00}$, Şərur rayonu, Mahmudkənd kəndi, icra nümayəndəliyinin inzibati binası<br>14.11.2024, saat $11^{00}$, Şərur rayonu, Oğlanqala kəndi, icra nümayəndəliyinin inzibati binası<br>19.11.2024, saat $11^{00}$, Şərur rayonu, Məmmədsabir kəndi, icra nümayəndəliyinin inzibati binası | Əliyev Mehman Vəli oğlu, 050-647-50-04<br>Hüseynov Ənvər Ələsgər oğlu, 060-416-95-10<br>Heydərov Elman Aydın oğlu, 050-674-89-94 |
| 10. | 10 saylı Şərur şəhər seçki dairəsi üzrə Hacıyeva Sevil Məhəmmədəli qızı | 01.11.2024, saat $11^{00}$, Şərur rayonu, Şəhriyar kəndi, icra nümayəndəliyinin inzibati binası, 25.11.2024, saat $11^{00}$, Şərur rayonu, Şərur şəhəri, Şərur şəhər Mərkəzi Kitabxananın inzibati binası | İsmayılova Mahı Arif qızı, 070-755-00-76 |
| 11. | 11 saylı Aşağı Yaycı seçki dairəsi üzrə Həsənova Sevinc Nəsrəddin qızı | 22.11.2024, saat $12^{00}$, Şərur rayonu, Dizə kəndi, icra nümayəndəliyinin inzibati binası, 22.11.2024, saat $15^{00}$, Şərur rayonu, Həmzəli kəndi, icra nümayəndəliyinin inzibati binası | Kərimova Tərifə Məmməd qızı, 050-719-85-39 |
| 12. | 12 saylı İbadulla seçki dairəsi üzrə Məmmədov Məmməd Kərəm oğlu | 07.11.2024, saat $15^{00}$, Şərur rayonu, Ələkli kəndi, icra nümayəndəliyinin inzibati binası, 21.11.2024, saat $15^{00}$, Şərur rayonu, Vərməziyar kəndi, icra nümayəndəliyinin inzibati binası | Məmmədli Çinarə Məmməd qızı, 077-322-86-86 |
| 13. | 13 saylı Püsyan seçki dairəsi üzrə Novruzov Rafiq Novruz oğlu | 04.11.2024, saat $15^{00}$, Şərur rayonu, Danyeri kəndi, Danyeri kənd icra nümayəndəliyi, 29.11.2024, saat $15^{00}$, Şərur rayonu, Tənənəm kəndi, Tənənəm kənd icra nümayəndəliyi | İbrahimov Əli Allahverdi oğlu, 050-571-33-03 |
| 14. | 14 saylı Qarabağlar seçki dairəsi üzrə Zeynalov Təbriz Eyvaz oğlu | 05.11.2024, saat $11^{30}$, Kəngərli rayonu, Qarabağlar kəndi, icra nümayəndəliyinin inzibati binası<br>15.11.2024, saat $11^{30}$, Kəngərli rayonu, Yurdçu kəndi, icra nümayəndəliyinin inzibati binası<br>19.11.2024, saat $11^{30}$, Kəngərli rayonu, Qabıllı kəndi, icra nümayəndəliyinin inzibati binası | Əhmədzadə Əhməd İlqar oğlu, 050-804-68-00 |
| 15. | 15 saylı Qıvraq seçki dairəsi üzrə Orucova Xəzəngül Yunis qızı | 05.11.2024, saat $11^{00}$, Kəngərli rayonu, Qıvraq qəsəbəsi, qəsəbə tam orta məktəbi | Məmmədova Vəfa Elman qızı, 060-491-30-96 |
| 16. | 16 saylı Xok seçki dairəsi üzrə Məmmədov Mövlan Ələddin oğlu | 04.11.2024, saat $11^{00}$, Kəngərli rayonu, Çalxanqala kəndi, icra nümayəndəliyinin inzibati binası, 18.11.2024, saat $11^{00}$, Kəngərli rayonu, Xıncab və Təzəkənd kəndləri, Xıncab kənd icra nümayəndəliyinin inzibati binası | Hacızadə Qorxmaz Vahid oğlu, 050-749-63-10 |
| 17. | 17 saylı Nehrəm seçki dairəsi üzrə Cəfərov Rauf Mehralı oğlu | 07.11.2024, saat $15^{00}$, Babək rayonu, Nehrəm qəsəbəsi, icra nümayəndəliyinin inzibati binası | Hüseynov Elvin Hüseyn oğlu, 050-246-67-78 |
| 18. | 18 saylı Nehrəm seçki dairəsi üzrə Rzayev Teymur Yaqub oğlu | 15.11.2024, saat $15^{00}$, Babək rayonu, Nehrəm qəsəbəsi, icra nümayəndəliyinin inzibati binası, 19.11.2024, saat $15^{00}$, Babək rayonu, Çeşməbasar və Güznüt kəndləri, Güznüt kənd icra nümayəndəliyinin inzibati binası | Axundov Simral Fərəc oğlu, 050-289-05-78 |
| 19. | 19 saylı Babək şəhər seçki dairəsi üzrə Allahverdiyeva Həbibə Rəşad qızı | 01.11.2024, saat $11^{00}$, Babək rayonu, Hacıvar kəndi, icra nümayəndəliyinin inzibati binası, 04.11.2024, saat $11^{00}$, Babək şəhəri, Babək Şəhər Mədəniyyət Sarayının inzibati binası | Fərzəliyeva Nurşanə İntiqam qızı, 051-923-54-56 |
| 20. | 20 saylı Zeynəddin seçki dairəsi üzrə Həşimov Əli Həsənqulu oğlu | 21.11.2024, saat $11^{00}$, Babək rayonu, Nəhəcir kəndi, icra nümayəndəliyinin inzibati binası, 25.11.2024, saat $11^{00}$, Babək rayonu, Nəcəfalı Dizə kəndi, icra nümayəndəliyinin inzibati binası | İbrahimov Namin Cabbar oğlu, 060-398-20-25 |
| 21. | 21 saylı Sirab seçki dairəsi üzrə Qənbərov Qafar Tahar oğlu | 25.11.2024, saat $15^{00}$, Babək rayonu, Məmmədrza Dizə və Qaraqala kəndləri, Məmmədrza Dizə kənd icra nümayəndəliyinin inzibati binası | Qənbərli Gülcan Qafar qızı, 060-201-41-01 |
| 22. | 22 saylı Şıxmahmud seçki dairəsi üzrə Məmmədov Üzeyir Səyyad oğlu | 29.11.2024, saat $11^{00}$, Babək rayonu, Xəlilli kəndi, icra nümayəndəliyinin inzibati binası | Həsənəliyev Fərid Rasim oğlu, 060-541-94-95 |
| 23. | 23 saylı Cəhri seçki dairəsi üzrə Bayramova Ülkər İmamqulu qızı | 07.11.2024, saat $11^{00}$, Babək rayonu, Cəhri qəsəbəsi, 1 №-li tam orta məktəb, 20.11.2024, saat $11^{00}$, Babək rayonu, Cəhri qəsəbəsi, icra nümayəndəliyinin inzibati binası | Quliyev Emil Orxan oğlu, 077-545-85-90 |
| 24. | 24 saylı Naxçıvan şəhər seçki dairəsi üzrə Əliyeva Nuray Yadigar qızı | 02.11.2024, saat $11^{00}$, Naxçıvan şəhəri, Tumbul kəndi, icra nümayəndəliyinin inzibati binası, 06.11.2024, saat $11^{00}$, Naxçıvan şəhəri, Qaraçuq kəndi, icra nümayəndəliyinin inzibati binası | Seyidli Sabirə Azər qızı, 099-308-00-47 |
| 25. | 25 saylı Naxçıvan şəhər seçki dairəsi üzrə Məmmədova Xumar Şəmsi qızı | 14.11.2024, saat $11^{00}$, Naxçıvan şəhər, 4 saylı sahə icra nümayəndəliyi, 29.11.2024, saat $11^{00}$, Naxçıvan şəhər, 4 saylı sahə icra nümayəndəliyi | Hüseynli Bəhriyə Məzayıl qızı, 060-387-07-77, 036-550-08-29 |
| 26. | 26 saylı Naxçıvan şəhər seçki dairəsi üzrə Orucov Asəf Yunis oğlu | 04.11.2024, saat $10^{00}$, Naxçıvan şəhər, Ərtoğrol Cavid adına Uşaq Musiqi və Bədii Sənətkarlıq Məktəbinin inzibati binası, 22.11.2024, saat $10^{00}$, Naxçıvan Şəhər, 6 saylı Mənzil İstismar İdarəsinin inzibati binası | Əliyev Səfər Səxavət oğlu, 060-485 25-85<br>Məmmədova Ziniyət Zakir qızı, 060-544-23-13 |
| 27. | 27 saylı Naxçıvan şəhər seçki dairəsi üzrə Məmmədzadə Vüsal Əziz oğlu | 05.11.2024, saat $15^{00}$, Naxçıvan şəhəri, 2 nömrəli tam orta məktəb, 19.11.2024, saat $15^{00}$, Naxçıvan şəhəri, 10 nömrəli tam orta məktəb | Məmmədli Röyal Vüsal oğlu, 060-200-54-64 |
| 28. | 28 saylı Naxçıvan şəhər seçki dairəsi üzrə Babayeva Təhminə Adil qızı | 05.11.2024, saat $15^{00}$, Naxçıvan şəhəri, 8 nömrəli tam orta məktəb, 19.11.2024, saat $15^{00}$, Naxçıvan şəhəri, 12 nömrəli tam orta məktəb | Cəlilzadə Səkinə Əhməd qızı, 051-310-55-38 |
| 29. | 29 saylı Naxçıvan şəhər seçki dairəsi üzrə Məmmədov Bəhruz Qibləli oğlu | 15.11.2024, saat $16^{00}$, Naxçıvan şəhəri, NDU Təbiətşünaslıq və kənd təsərrüfatı fakültəsi, 28.11.2024, saat $16^{00}$, Naxçıvan şəhəri, NDU Təbiətşünaslıq və kənd təsərrüfatı fakültəsi | Rəhimov Vüsal Musa oğlu, 060-333-00-23 |
| 30. | 30 saylı Naxçıvan şəhər seçki dairəsi üzrə Əhmədova Şəhla Hüseyn qızı | 14.11.2024, saat $10^{00}$, Naxçıvan şəhəri, Şahmat Mərkəzi, 27.11.2024, saat $10^{00}$, Naxçıvan şəhəri, Şahmat Mərkəzi | Əhmədova Arzu Rza qızı, 060-384-34-30 |
| 31. | 31 saylı Naxçıvan şəhər seçki dairəsi üzrə Məmmədov Nazim Məmməd oğlu | 15.11.2024, saat $15^{00}$, Naxçıvan şəhəri, 17 №-li tam orta məktəb, 27.11.2024, saat $15^{00}$, Naxçıvan şəhəri, 17 №-li tam orta məktəb | Hüseynov Sərvər Zeyqəm oğlu, 050-364-05-06 |
| 32. | 32 saylı Naxçıvan şəhər seçki dairəsi üzrə Qasımov Əziz Kamal oğlu | 04.11.2024, saat $15^{00}$, Naxçıvan şəhəri, Əcəmi məhəlləsi, Əliabad qəsəbəsi, icra nümayəndəliyinin inzibati binası, 07.11.2024, saat $15^{00}$, Naxçıvan şəhəri, 59-cu məhəllə, Naxçıvan şəhəri, 1 №-li tam orta məktəbin binası, 15.11.2024, saat $15^{00}$, Naxçıvan şəhəri, 48-ci məhəllə, Naxçıvan şəhəri, 17 №-li tam orta məktəbin binası | Rəhimov İntiqam Rəhim oğlu, 055-873-85-86 |
| 33. | 33 saylı Naxçıvan şəhər seçki dairəsi üzrə Dünyamalıyeva Aysel Məmməd qızı | 15.11.2024, saat $11^{00}$, Naxçıvan şəhəri, Əliabad qəsəbəsi, icra nümayəndəliyinin inzibati binası, 27.11.2024, saat $11^{00}$, Naxçıvan şəhəri, Əliabad qəsəbəsi, icra nümayəndəliyinin inzibati binası | Əhmədova Arzu Rza qızı, 060-384-34-30 |
| 34. | 34 saylı Şahbuz şəhər seçki dairəsi üzrə Rüstəmova Gülşad Qəzənfər qızı | 19.11.2024, saat $11^{00}$, Şahbuz rayonu, Şahbuz şəhəri, “Araz” kinoteatrının binası, 29.11.2024, saat $11^{00}$, Şahbuz rayonu, Külüs kəndi, icra nümayəndəliyinin inzibati binası | Rzayev Əli Firudin oğlu, 050-337-69-44 |
| 35. | 35 saylı Kolanı seçki dairəsi üzrə Tarverdiyeva Gülxarə Budaq qızı | 05.11.2024, saat $11^{00}$, Şahbuz rayonu, Qızıl Qışlaq kəndi, icra nümayəndəliyinin inzibati binası, 22.11.2024, saat $11^{00}$, Şahbuz rayonu, Biçənək kəndi, icra nümayəndəliyinin inzibati binası | Adilzadə Adil Azər oğlu, 060-307-07-37 |

| | | | |
|---|---|---|---|
| 36. | 36 saylı Badamlı qəsəbə seçki dairəsi üzrə Məmmədov Ramiz Gülməmməd oğlu | 20.11.2024, saat $15^{00}$, Şahbuz rayonu, Badamlı kəndi, icra nümayəndəliyinin inzibati binası | Qasımov Bəhlul Fərəməz oğlu, 050-483-29-78 |
| 37. | 37 saylı Culfa şəhər seçki dairəsi üzrə Əliyev Əjdər Zahid oğlu | 04.11.2024, saat $10^{00}$, Culfa şəhəri, icra nümayəndəliyinin inzibati binası, 27.11.2024, saat $10^{00}$, Culfa şəhəri, icra nümayəndəliyinin inzibati binası | Məmmədov Rəhman Abasət oğlu, 060-469-08-69; 077-569-43-65 |
| 38. | 38 saylı Yaycı seçki dairəsi üzrə Xudiyev Rza Əli oğlu | 20.11.2024, saat $15^{00}$, Culfa rayonu, Yaycı kəndi, icra nümayəndəliyinin inzibati binası | Əliyev Əli Şəmsəddin oğlu, 050-740-20-27 |
| 39. | 39 saylı Bənəniyar seçki dairəsi üzrə Abdullayev Qəzənfər İsmayıl oğlu | 15.11.2024, saat $11^{00}$, Culfa rayonu, Kırna kəndi, icra nümayəndəliyinin inzibati binası, 28.11.2024, saat $11^{00}$, Culfa rayonu, Qızılca kəndi, icra nümayəndəliyinin inzibati binası | Əsgərov Elnur Lazar oğlu, 055-299-15-99, 060-211-82-42 |
| 40. | 40 saylı Saltaq seçki dairəsi üzrə Canməmmədov Canməmməd Ramiz oğlu | 05.11.2024, saat $10^{00}$, Culfa rayonu, Milax kəndi, icra nümayəndəliyinin inzibati binası, 19.11.2024, saat $10^{00}$, Culfa rayonu, Ləkətağ kəndi, icra nümayəndəliyinin inzibati binası, 26.11.2024, saat $10^{00}$, Culfa rayonu, Ərəfsə kəndi, icra nümayəndəliyinin inzibati binası | Gözəlov Zəkəriyyə Tahir oğlu, 060-289-61-62, 050-289-61-62 |
| 41. | 41 saylı Ordubad şəhər seçki dairəsi üzrə Məmmədov Bəxtiyar İbrahim oğlu | 14.11.2024, 28.11.2024, saat $10^{00}$, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin inzibati binası | Naxçıvan Muxtar Respublikası Ali Məclisinin qəbul sektoru, 036-544-01-43 |
| 42. | 42 saylı Aşağı Əndəmic seçki dairəsi üzrə Abdullayev Arzu Kamal oğlu | 07.11.2024, 21.11.2024, saat $15^{00}$, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin inzibati binası, 27.11.2024, saat $15^{00}$, Ordubad rayonu, Yuxarı Əylis kəndi, icra nümayəndəliyinin inzibati binası | Hacıyev Çinar Sahib oğlu, 060-352-52-53 |
| 43. | 43 saylı Vənənd seçki dairəsi üzrə Nəbiyev Ramil Paşa oğlu | 01.11.2024, saat $11^{00}$, Ordubad rayonu, Xanağa kəndi, icra nümayəndəliyinin inzibati binası, 22.11.2024, saat $11^{00}$, Ordubad rayonu, Dırnıs kəndi, icra nümayəndəliyinin inzibati binası | Əhmədov Ziyad Mehman oğlu, 070-280-75-01, 557-37-59 |
| 44. | 44 saylı Dəstə seçki dairəsi üzrə Rzayev Elmar İlqar oğlu | 18.11.2024, saat $15^{00}$, Ordubad rayonu, Dəstə kəndi, icra nümayəndəliyinin inzibati binası, 19.11.2024, saat $15^{00}$, Ordubad rayonu, Düylün kəndi, icra nümayəndəliyinin inzibati binası | Səfərov Vüsal Ramiz oğlu, 060-487-57-47 |
| 45. | 45 saylı Sabirkənd seçki dairəsi üzrə Əhmədova Gülxarə Mənaf qızı | 14.11.2024, saat $11^{00}$, Ordubad rayonu, Gilançay kəndi, icra nümayəndəliyinin inzibati binası, 30.11.2024, saat $11^{00}$, Ordubad rayonu, Biləv kəndi, icra nümayəndəliyinin inzibati binası | Əhmədov Suat Yusif oğlu, 060-200-09-30 |

# Naxçıvan Dövlət Filarmoniyası Türkiyədə konsert proqramı ilə çıxış edib



*18 oktyabr – Müstəqilliyin Bərpası Günü və Naxçıvan Muxtar Respublikasının yaradılmasının 100 illiyi münasibətilə Naxçıvan Dövlət Filarmoniyasının Mahnı və Rəqs Ansamblı Türkiyə Respublikasının İğdır şəhərində konsert proqramı ilə çıxış edib.*

Naxçıvan Muxtar Respublikası Mədəniyyət Nazirliyinin və İğdır-Azərbaycan Evinin birgə təşkilatçılığı ilə konsert proqramı İğdır Mədəniyyət Mərkəzində təşkil olunub.

Naxçıvan Muxtar Respublikası mədəniyyət nazirinin müavini, nazir vəzifələrinin müvəqqəti icraçısı Həsən Seyidov, İğdır valisi Ercan Turan, Türkiyənin Naxçıvandakı Baş konsulu Asip Kaya, Naxçıvan Muxtar Respublikası Nazirlər Kabineti Aparatının əməkdaşı Gülçin Dünyamalıyev, Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin Naxçıvan Muxtar Respublikasındakı İdarəsinin rəisi Vüsal Ələkbərli və digər hökumət nümayəndələrinin iştirak etdiyi tədbir Türkiyə və Azərbaycan himnlərinin səsləndirilməsi ilə başlayıb.

Daha sonra çıxış edənlər tədbirin əhəmiyyətini vurğulayaraq Azərbaycan-Türkiyə qardaşlığının tarixi bağlarından bəhs edib, tədbirin əhəmiyyətini diqqətə çatdırıblar.

Musiqili gecədə Əli Səliminin "Sizə salam gətirmişəm", Xan Şuşinskinin "Şuşanın dağları", Üzeyir Hacıbəylinin "Çırpınırdı Qara dəniz", Cavanşir Quliyevin "Azərbaycan-Türkiyə", eləcə də digər mahnı və rəqslər ifa edilib.

Filarmoniyanın solistləri Zülfiqar Mahmudov, Nərmin Hüseynova, İlkin Abdullayev, Əfsanə Babayeva tərəfindən səsləndirilən mahnılar, həmçinin rəqs qrupunun çıxışları qardaş ölkənin sənətsevərləri tərəfindən alqışlarla qarşılanıb.

# Ümummilli Lider Heydər Əliyevin müəllimi, Naxçıvan Dövlət Universitetinin ilk rektoru Əli Əliyevin 120 illiyi qeyd olunub



Tədbirdən əvvəl qonaqlar Naxçıvan şəhər qəbiristanlığında tarix elmləri namizədi, dosent Əli Əliyevin məzarını ziyarət edərək Naxçıvan Dövlət Universiteti adından əklil qoyublar.

Naxçıvan Dövlət Universitetində keçirilən tədbir çərçivəsində universitetin ilk rektoru, görkəmli ictimai-siyasi xadim Əli Əliyevin adına auditoriyanın açılışı olub. Auditoriya Əli Əliyevin zəngin və çoxşaxəli həyat fəaliyyətini əks etdirən şəkillər, elektron resurslar, kitablar və digər elmi-ədəbi mənbələrlə təchiz edilib.

Tədbir başlamadan öncə Əli Əliyevə həsr olunan Naxçıvan Televiziyasının hazırladığı film nümayiş olunub.

Ali təhsil ocağının rektoru Elbrus İsayev görkəmli elm xadimi Əli Əliyevin istər tarix elminin, istərsə də Naxçıvan Dövlət Universitetinin inkişafı sahəsində gördüyü işlərdən ətraflı bəhs edib. Diqqətə çatdırılıb ki, tarixçi Əli Əliyev Azərbaycan xalqının Ümummilli Lideri, görkəmli dövlət xadimi Heydər Əliyevin müəllimlərindən olub. Bildirilib ki, Azərbaycan-Ermənistan münaqişəsinin şahidi olaraq əsərlər qələmə alan tarixçinin yazdığı "Əlincə yaddaşı" əsəri Naxçıvanın tarixi və mədəni irsini qoruyan önəmli mənbələrdən biridir. Elbrus İsayev Əli Əliyevin universitetin ilk rektoru kimi Naxçıvanın təhsil mühitinə böyük töhfələr verdiyini və onun xidmətlərinin daim yüksək qiymətləndirildiyini diqqətə çatdırıb.

Azərbaycan Milli Elmlər Akademiyası Naxçıvan Bölməsinin sədri, akademik İsmayıl Hacıyev qeyd edib ki, ictimai-siyasi xadim təhsil sahəsindəki xidmətləri ilə yanaşı, siyasi fəaliyyəti ilə də yaddaşlarda iz buraxıb. Akademik Əli Əliyevin 1941-1947-ci illərdə Naxçıvan MSSR Xalq Maarif komissarı, Naxçıvan MSSR Maarif naziri, 1951-1967-ci illərdə Naxçıvan MSSR Ali Soveti Rəyasət Heyətinin katibi vəzifəsində çalışdığını, 1967-1970-ci illərdə Azərbaycan Dövlət Pedaqoji İnstitutunun Naxçıvan filialının (indiki Naxçıvan Dövlət Universiteti) təşkilatçısı və ilk direktoru olduğunu vurğulayıb.

AMEA-nın müxbir üzvü, tarix elmləri doktoru, professor Hacı Fəxrəddin Səfərli, tarix elmləri doktoru, dosent Eynulla Mədətli, fəlsəfə elmləri doktoru, professor Məmməd Rzayev, tarix elmləri doktoru, dosent Xəzər Hüseynov, "Xan Sarayı" Dövlət Tarix-Memarlıq Muzeyinin direktoru Nəzakət Əsədova, Əli Əliyevin nəvəsi tarix üzrə fəlsəfə doktoru Nail Əliyev ali təhsil ocağının ilk rektorunun elmi-pedaqoji və ictimai fəaliyyətindən danışıb, onunla bağlı xatirələrini bölüşüblər.

# "Gələcəklə ünsiyyət" 14-cü beynəlxalq konfrans keçirilib





Naxçıvan Dövlət Universitetində keçirilən tədbirdən əvvəl qonaqlarla görüşən universitetin rektoru Elbrus İsayev Türkiyə Radio və Televiziya kanallarının muxtar respublikada geniş izləyici kütləsinin olduğunu bildirərək qardaş ölkə mediasının fəaliyyətini yüksək qiymətləndirib.

Türkiyə Radio və Televiziya Ali Şurası sədrinin müavini Orhan Karadaş qardaş ölkədə fəaliyyət göstərən radio və televiziya kanallarının yayımlarına nəzarət edən ictimai qurumun məqsədi haqqında məlumat verib. Qarşılıqlı fikir mübadiləsi ilə keçən görüşün sonunda türkiyəli qonaq Elbrus İsayevə plaket təqdim edib.

"Gələcəklə ünsiyyət" beynəlxalq konfransının əvvəlində hər iki ölkənin Ulu öndərləri – Mustafa Kamal Atatürkün və Heydər Əliyevin, eləcə də şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib, Dövlət himnləri səsləndirilib.

Naxçıvan Dövlət Universitetinin rektoru Elbrus İsayev konfransın qədim Naxçıvan torpağında keçirilməsinin əhəmiyyətindən bəhs edib. Vurğulanıb ki, "Şərqin qapısı" adlandırılan muxtar respublika Türk dünyası üçün birləşdirici nöqtədir. Rektor muxtar respublikanın 100-cü, Türkiyə Cümhuriyyətinin 101-ci ildönümündə belə mötəbər tədbirin təşkilini yüksək qiymətləndirib.

Elm və Ali Təhsil üzrə Dövlət Agentliyi Beynəlxalq Əməkdaşlıq şöbəsinin müdiri Müjdat Həsənov bildirib ki, hazırda Türkyənin müxtəlif universitetlərində 35 mindən çox azərbaycanlı tələbə təhsil alır. Vurğulanıb ki, Türkiyə Radio və Televiziya Ali Şurasının təşkil etdiyi bu konfrans Azərbaycan universitetlərinin beynəlxalq səviyyədə əlaqələrinin artırılmasına önəmli töhfədir.

Azərbaycanın Türkiyədəki səfirliyinin təhsil məsələləri üzrə müşaviri, dosent Nəcibə Nəsibova çıxışında proqramın Naxçıvanda təşkil olunmasının bölgənin gələcəyi baxımından əhəmiyyətli olduğunu qeyd edib.

Türkiyə Respublikasının Naxçıvandakı Baş konsulu Asip Kaya Naxçıvanın 100 illik tarixinə nəzər salıb. Hər iki ölkə arasında möhkəm bağların olduğunu dilə gətirən Asip Kaya bu əlaqələrin inkişafı istiqamətində görülən işlərdən bəhs edib.

Türkiyə Radio və Televiziya Ali Şurası sədrinin müavini Orhan Karadaş 14-cü "Gələcəklə ünsiyyət" konfransının Naxçıvanda təşkil olunmasının vacibliyini qeyd edib. Mustafa Kamal Atatürkün Naxçıvanın Türk dünyası üçün böyük əhəmiyyətə malik olduğunu və qorunmasının vacibliyini nəzərə alaraq dediyi: *"Naxçıvan Türkün qapısıdır. Bu xüsusiyyəti nəzərə alaraq əlinizdən gələni edin"* sözlərini iştirakçıların diqqətinə çatdırıb.

Sonra 15 ölkədən 26 tələbənin hazırladığı "Ənənəvi rəqəmsal media üsullarında dəyişim" mövzusunda təqdimatlar olub.

Konfransda qarşılıqlı plaketlər və hədiyyələr təqdim edilib. Həmçinin iştirakçı tələbə gənclərə Naxçıvan Dövlət Universitetinin hədiyyələri verilib.

Sonda konfrans iştirakçıları xatirə fotosu çəkdiriblər.

# Toy və yas biznesinin əsirləri

*(əvvəli qəzetin 19 oktyabr 2024-cü il nömrəsində)*



**Hüseyn ƏSGƏROV**
*yazıçı-publisist*

**Saturn planetinə sarı tuşlanan klarnet**

Siyahı uzundur, sadalamıram. Qoy birini də deyim, ürəyimdə qalmasın. Çağırıblar ciyərqapmaya, həyətə girirsən nağaraçalan yeriyir qabağına, çomağı nağaraya elə vurur ki, az qalır, dərisi cırılsın, adama elə gəlir ki, həmin anda ona nəmər verməsən, ikinci çomaq təpənə enəcək. Klarnetçalan klarneti Saturn planetinə sarı tuşlasa da, gözü cibindədir, kinooperator səni ön planda çəkirsə, bax gör də, neynirsən. Birdimi, ikidimi?..

Hamı ürəkbulandıran belə toylardan dad eləyir, amma heç kəs də ayağını məlum "cığır"dan kənara qoymaq istəmir. Hətta gün çörəyinə möhtac olandan da soruşanda deyir ki, eldən-obadan ayıbdı, qohum-əqrəba mənə nə deyər.

Toylardakı vəhşi israfçılığın qarşısının alınmasını hamı istəyir, lakin bir araya gələ bilmir. Elə isə məsələ niyə inzibati metodlarla həll olunmur? Toyların tənzimlənməsi üçün bir qərar və ya sərəncam kifayətdir. Nədən bu qərar verilmir? Nə üçün hamını narahat edən bu məsələdə əhalinin deyil, kimlərinsə himayə etdiyi şadlıq sarayı və restoranların sahibkarının mənafeyi qorunur? Onların varlanması üçün milli-mənəvi dəyərlər nə üçün ayaq altına atılmalıdır?

Bu sualların cavabı varmı?

Əgər yadınızdadırsa, pandemiya dövründə bu məsələ qərar və sərəncamlarla çox gözəl həll olunmuşdu. Hər şeyin ölçü-biçisi vardı, hamı da razılıq edirdi. Toyların tənzimlənməsi üçün yeni bir pandemiya gözləməliyikmi?

Son illər şadlıq sarayları, restoranların sayı yağışdan sonra göbələk kimi artmaqdadır. Təbii ki, onların sahibləri bu yolda xərclədiklərini tez bir zamanda qaytarmaq istəyir. Onlar buna iaşə xidmətini müasir tələblər səviyyəsində qurmaq hesabına yox, əsasən, toyların məkanı kimi nail olmağa üstünlük verirlər. Toy mafiyası, əsasən, bu yerlərdə formalaşır. Təbliğat elə aparılır ki, əhalinin böyük əksəriyyəti könüllü olaraq toy mafiyasının toruna düşür. İmkanı olan da, olmayan da bu axınla getmək məcburiyyətindədir. Toyla bağlı sifariş verəndə istər-istəməz toy sahibinə növbənöv çeşiddə yeməklər təklif olunur. Nəticədə, şadlıq evləri toyun təşkilinə çəkilən xərcin maya dəyərindən beşqat, onqat artıq pul qazanırlar. Qazanan mafiya olur, itirdiklərimiz isə milli dəyərlərimiz.

**Bülbül, üstündə də fil**

Hələ təzə əndrabadi adətlər də peyda olub. Son vaxtlar mərkəzdən tutmuş ucqarlara qədər təzə çayxanalar açılır. Əksəriyyətində sadə çay verilmir. Bir stəkan çayı da dəsgahla içməlisən. Gərək mütləq mürəbbə və digər şirniyyat da ola. Yəni bülbül, üstündə də fil. Ha denən ki, şəkərə meyilliyəm, yaxud şəkər səhhətimə zərərdir. Deyir, yox ey, bir ətək pul verib açdırmışam, gərək pulunu çıxaram, ya yox?! Zalımın oğlu bir-iki ayın içində verdiyi pulu çıxarmaq istəyir, onu istehlakçıların hüququ zərrə qədər maraqlandırmır.

Xalqımız ta əzəldən çaya meyillidir. İlk tanışlıqlar, əsasən, çayxanalardan başlayır, münasibətlər burada möhkəmlənir, planlar cızılır, arzular dilə gəlir, xatirələr çözülür. Açıq deyək ki, müxtəlif təminatlı adamların bir araya gəlməsi üçün çayxanalar əvəzedilməz məkandır. 20-25 il əvvəl Naxçıvanda müəyyən istisnalarla çayxanaların fəaliyyətinin dayandırılması əhalinin məskunlaşmasına öz mənfi təsirlərini göstərdi. Təsəvvür edin, kənd yeri, işdən-gücdən qayıdan adamların üz tutacaq bir yeri yox. Dəmir qaz borularının üstündə əyləşib yola nə qədər göz dikmək olar?

İndi də cibi çayxanaya tərs mütənasib olan adamlar yenidən qaz borularına sarı boylanmaqdadır.

**Hələ yas mərasimləri**

Haradasa toyları bir təhər ötüşdürmək olar. Çünki toylar əvvəlcədən planlaşdırılır, hazırlıq görülür. Yas isə qəfildən baş verən bir hadisədir. Dünyasını dəyişmiş insanların yaxınları yas mərasimləri zamanı bilmir ki, öz əzizlərinin itkisinə yansın, yoxsa qonaqların yemək məclisinin dərdini çəksin. Çünki artıq bu mərasimlər az qala banket tədbirlərinə dönüb. Yas sahibləri borca da girmiş olsa, təki el qınağına hədəf olmamaq üçün ehsan vermək məcburiyyətindədir.

Azərbaycan milli mətbuatının banisi Həsən bəy Zərdabinin vəsiyyətnaməsində belə bir istək vardı: "Mənim həyat yoldaşım Hənifə xanım yas mərasimimə və dəfnimə xərclənəsi pulu xalq təhsilinə sərf etməyə borcludur".

Ehsan vermək istəyən qoy o xərcləri savab qazanacağı bir işə yönəltsin, yoxsa qarın doyurmağa yox. Yas yeri yeyib-içmək yeri deyil. Xüsusən Bakı şəhəri və ətraf kəndləri. Bu yaxınlarda yas yerində iştirak etdim, süfrədə gördüklərimdən dəhşətə gəldim. Adamın əzizi vəfat edib, dərd içindədir, amma özünü ora-bura vurur ki, yasa gələnləri yedirib-içirtsin. Borcxərclə olsa da...

**İstək olan yerdə**

Bu problemin aradan qalxması üçün ciddi qanun qüvvəyə minməli, toy və yas biznesinə son qoyulmalıdır. Məlum olduğu kimi, Şərur rayonunun Mahmudkənd sakinlərinin birgə qərarı ilə ötən ilin sentyabrından yas mərasimlərində ehsan verilməsi qadağan edilib.10 sentyabr tarixdən etibarən kənd ərazisindəki 3, 7 və 40 mərasimlərində ehsan verilmir, başsağlığına gələnlər üçün yalnız çay süfrəsi açılır. Həmçinin xüsusi vurğulanıb ki, kənd sakinlərindən hər hansı biri bu qaydanı pozarsa, həmin şəxsin keçirdiyi yasda sakinlər iştirak etməyəcək.

Deməli, istək olan yerdə toylardakı israfçılıq da aradan qaldırıla bilər. Bəs nə mane olur?

Ölkə başçısının Naxçıvanda apardığı köklü islahatlar, səlahiyyətli nümayəndəlik institutunun yaradılması, təhlükəsizlik və digər hüquq-mühafizə orqanlarındakı yenilənmələr, şəffaflıq mühitinin yaradılmasına doğru ciddi addımlar indi Naxçıvanda israfçılığın baş alıb getdiyi toyların, eləcə də yasların tənzimlənməsinə, istehlakçıların hüquqlarının pozulduğu iaşə obyektləri haqqında ölçü götürülməsinə böyük ümidlər yaradır.




Müəllif: Araz Xudiyev

# Diaqnostik qiymətləndirilmədə 2 tərbiyəçi-müəllim 57 bal toplayıb

Naxçıvanda ilk dəfə olaraq ölkə üzrə mərkəzləşdirilmiş qaydada keçirilən diaqnostik qiymətləndirilmə prosesində Naxçıvan şəhər 5 nömrəli körpələr evi-uşaq bağçasının tərbiyəçi-müəllimi Leyla Məmmədhəsənli və Naxçıvan şəhər 7 nömrəli körpələr evi-uşaq bağçasının tərbiyəçi-müəllimi Sürəyya Qasımova maksimum 60 baldan 57 bal toplayıb.

Söhbətimiz zamanı tərbiyəçi-müəllim Leyla Məmmədhəsənli bildirdi: "2021-ci ildən bağçada çalışıram. Diaqnostik qiymətləndirmə imtahanına 2 ay müddətində hazırlaşmışam. Bundan əvvəl Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin təşkil etdiyi iki sınaqda iştirak etmişəm və hər ikisində də yüksək nəticə (60,53) göstərmişəm. Bu yolda mənə dəstək olan həyat yoldaşıma və bağçamızın müdiri Cəmilə Hüseynovaya minnətdarlığımı bildirirəm. Qeyd edim ki, mənim üçün ikinci bir



sevindirici hal budur ki, bağçamızda 5 müəllim 50 baldan yuxarı bal toplayaraq Azərbaycan Respublikası üzrə bağçalar arasında ən yüksək nəticəni göstərib".

Digər müsahibim isə 7 nömrəli körpələr evi-uşaq bağçasının tərbiyəçi-müəllimi Sürəyya Qasımovadır. O dedi: "Mən Naxçıvan Müəllimlər İnstitutunun Məktəbəqədər təhsilin pedaqogikası və metodikası ixtisasını bitirmişəm. 7 nömrəli bağçada 12 illik pedaqoji təcrübəm var. Pedaqoji fəaliyyətim dövründə bütün yaş qrupları ilə işləmişəm. Diaqnostik qiymətləndirilmə imtahanında maksimum nəticə – 60 bal toplamağı hədəfləmişdim. Amma, şükür ki, hədəfimdən çox da aşağı bal toplamamışam. Bu da məni çox sevindirir. Uşaqları, onlarla səmərəli vaxt keçirməyi, onları öyrətməyi çox sevirəm. İmtahana hazırlaşma ərəfəsində mənə mənəvi dəstək olan ailəmə, həyat yoldaşıma, bizə hər zaman stimul verən müdirimiz Nazilə Ləzgiyevaya minnətdarlığımı bildirirəm".



Biz də "Şərq qapısı" qəzeti adından hər iki müəllimi təbrik edir, onlara pedaqoji fəaliyyətlərində uğurlar arzulayırıq.

Aygün RÜSTƏMOVA



# 100 ilin qəhrəmanları

***“Şərq qapısı” qəzeti bu adla yeni layihəyə start verib. Belə ki, qəzetimizin nömrələrində şəhid analarının övladları haqqında xatirələri yer alacaq. 44 cümləyə sığışdırılacaq hər bir xatirənin şəhidlərimizə böyük sevgi və ehtiram kimi oxucularımız tərəfindən də maraqla qarşılanacağına əminliyimizi bildirir, şəhidlərimizin ruhu qarşısında baş əyir, belə igid oğullar böyütmüş analarımıza minnətdarlığımızı ifadə edirik. Bugünkü nömrəmizdə Kəngərli rayonunun Xok kəndindən olan şəhidimiz Aslan Mirzəyevin anası Könül Mirzəyevanın, Kəngərli rayonunun Xok kəndindən olan şəhidimiz Kəmaləddin Məmmədovun anası Nəzakət Məmmədovanın və Kəngərli rayonunun Qarabağlar kəndindən olan şəhidimiz Vüqar Əsgərovun anası Səmayə Əsgərovanın övladları haqqında xatirələri yer alıb.***

## Aslan Maqsud oğlu Mirzəyev

*(17.07.2000-9.11.2020)*

### Balamın uca adı ilə fəxarət hissi duyuram





Aslan kiçik yaşlarından çox mehriban uşaq idi. Evdə 3 uşaq olublar. Hər kəs Aslanı mənə çox bənzədirdi. Mehribanlığı ilə yanaşı, həm də çox vətənpərvər oğul idi. Qəlbi daim Vətən sevgisi ilə döyünürdü. Bəlkə də, bu idi onu hərbçi olmağa vadar edən. Onu da deyim ki, hərbi xidmətdə olarkən evdəki kimi yoldaşlarına qarşı da mehriban idi. Hər dəfə evə gələndə özü ilə hərbçi yoldaşlarından qonaq gətirər, onların da qayğısına qalardı. Kənddə də, həmçinin böyük-kiçiyə qarşı o cür mehribanlıq edərdi. Bir sözümüzü iki etməzdi. Böyük-kiçik yeri bilər, kimsənin üzünə qayıtmazdı.

Aslan orta məktəbdə oxuyarkən də müəllimləri tərbiyəsindən razılıq edirdilər. Hərbi xidməti başa vurduqdan sonra hərbçi olmaq qərarına gəldi. Bu qərarının arxasınca getdi. Kurs keçdi, oxudu, öyrəndi və istəyinə çatdı. Təlimlərdə də iştirak edirdi. Müharibə başlayanda mənə demədi heç nə. Atası ilə telefonla danışırdı. Sonradan mənə dedilər ki, Aslan müharibədədir. Müharibədə olduğunu biləndən sonra ara-sıra mən də telefon əlaqəsi yaradıb danışırdım. Bir ana kimi çox nigaran qalırdım.

Mənim oğlum cəsur idi. Qorxmazlığı onu daim irəli getməyə sövq edirdi. Müharibədə də öndə gedib. Təbii ki, övlad itkisi bir ana kimi ağır olsa da, oğlumun qəhrəmanlığı məni qürurlandırır. Müharibənin bitməyinə 2-3 gün qalmış yenə telefonla danışdıq. “Hər şey yaxşı olacaq”, – deyirdi. Aslan nişanlı idi. Təəssüf ki, balamın arzuları yarımçıq qaldı. Son danışıqlarımızda dedi ki, ana, az qalır gəlməyimizə. Səbirsizliklə gözləyirdi evə qayıtmağını. Dedi ki, hazırlaşın, tezliklə gəlirəm, toy edək. Bizim üçün çox ağır oldu. Balamın toy hazırlıqlarını şəhadətə qovuşması ilə qarşılamalı olduq. Aslan noyabr ayının 9-u şəhidlik zirvəsinə yüksəldi. Qələbədən sonra döyüş yoldaşları gəlmişdi bizi görməyə. Müharibə xatirələrini də bizimlə bölüşürdülər. Yoldaşları Aslanın həmişə Xocalıda əsir düşmüş qız-gəlinimizin qisasını alacağını dilə gətirdiyini dedilər. Şuşada döyüşlər zamanı göstərdiyi şücaət hələ də döyüş yoldaşlarının dilindədir. Mən hər zaman olduğu kimi, balamın uca adı ilə fəxarət hissi duyuram. O, bu gün nəinki ailəsinin, eləcə də bütün Azərbaycan xalqının qəlbindədir. Oğlum başımızı uca etdi. Bizlərə şərəfli bir ad – şəhid ata-anası adını bəxş etdi. Allah bütün şəhidlərimizə rəhmət etsin. Qazilərimizə isə şəfa diləyirəm. Bayrağımız daim zirvələrdə dalğalansın.



## Kəmaləddin İsrail oğlu Məmmədov

*(10.09.1996-10.11.2020)*

### Qısa ömrün şərəfli yolu







Mənim övladım çox qayğıkeş, vətənpərvər oğul idi. Balaca vaxtlarından ata-anaya yaxşı münasibət saxlayırdı. Əməlisaleh övlad kimi özünü tanıtmışdı. Vətən üçün həmişə canını qurban verməyə hazır idi. Çünki onda güclü vətənpərvərlik hissi vardı. Kəmaləddinin yaxşı xüsusiyyətlərini saymaqla bitməz. Atası polis idi. Ona görə də hərbiyə daha çox məhəbbəti vardı. Deyirdi ki, hərbçi olmaq istəyir. Dövlətimizə, xalqımıza xidmət etmək arzusundadır. Öz arzusuyla da getdi yazıldı kurslara. Oradan da hərbçi kimi fəaliyyətə başladı. Mən bu gün onun xatirələri ilə yaşayıram. Elə bilirəm ki, o sağdı. Çox qayğıkeş idi. Onun yoxluğu hər birimizin qəlbini yandırır.



Müharibəyə getməyini heç bilmirdim. Demək olar ki, təlimlərdən sonra birbaşa getmişdi. Məndən gizlədirdi ki, narahatlıq keçirməyim. Müharibə ərəfəsində imkan tapan kimi mənə zəng edib kefimi xəbər alırdı. Hər dəfə də zəng edəndə deyirdi: “Ana, fikrim sənin yanında qalıb. Təki sən yaxşı ol. Özünə diqqət et”.

Məndən gizlətsələr də, hamı bilirdi ki, Kəmaləddin müharibədədir. Qələbə günü hər kəs zəng edib atasına gözaydınlığı verirdi. Dedim ki, nə olub ki, sənə gözaydınlığı üçün zəng edirlər? Atası da dedi ki, ay qəhrəman ana, oğlun müharibədədir, xəbərin yoxdur. Mən də qorxub ağladım həmin an. Yoldaşım dedi ki, ağlama, salamatçılıqdır. Kəmaləddin də zəng edib ki, sağ-salamatıq. Amma həmin an içimə bir narahatlıq düşdü. Ana ürəyidir, hissim məni yanıltmadı. Səhəri gün də qohum-qardaş hamı gəldi, süfrə açdıq. Deyib-gülmək səsi ucaldı. Həmin vaxt demək ki, balam şəhadətə ucalıb. Heç kimin də xəbəri yox idi. Çünki danışmışdıq, yaxşı olduğunu demişdi. Bu da qısa ömrün şərəfli yolu oldu balamın. Bu gün çox qürur duyuram Kəmaləddinin adı ilə. Fəxr edirəm ki, belə vətənpərvər, qəhrəman şəhidin anasıyam. Balam öz arzusuna çatdı. Vətən yolunda canını sipər etdi. Allah dövlətimizi, xalqımızı qorusun. Şəhid balalarımızın məqamı daim uca olsun.

## Vüqar Rza oğlu Əsgərov

*(26.11.1994-20.10.2020)*

### Vətənə, torpağa bağlı oğul idi





Hər kəs Vüqarı mehriban, istiqanlı uşaq kimi tanıyırdı. Həm də ağıllı, düşüncəli idi. Məktəbə qədəm qoyandan çalışırdı ki, dərslərini yaxşı oxusun. Ali təhsil almaq arzusunda idi. Amma, təəssüf ki, bu arzusuna müəyyən səbəblərdən çata bilmədi. Həddindən çox özünə qapalı biri idi. Heç ucadan səsi çıxmazdı. Hərbi xidmətə yollandı. Xidməti başa vurduqdan sonra isə ailəyə dəstək olmaq üçün işləməyə başladı. Atası da xəstə olduğundan çalışırdı ki, evə dayaq olsun. İstəmirdi ki, əziyyət çəkək. Gecə-gündüz çalışırdı ki, heç nəyə korluğumuz olmasın. Bir sözlə, evin bütün ağır yükü Vüqarın çiyinlərində idi. Vüqar həm də Vətənə, torpağa bağlı bir oğul idi. Elə bu səbəbdən hərbçi olmaq qərarına gəldi. Bu şərəfli yolu seçdi.



Müharibə başlanmazdan əvvəl təlimdə idi. Elə həmin ərəfədə də zəng edib danışdıq. İçimiz rahat deyildi, nigaran idik. Biz ondan nigaran qalırdıq, o da bizdən. Müharibə xəbərini eşidib çox ağlamışdım. Sanki mənə əyan olmuşdu. Təlimdən gələndə dedi ki, ana, niyə ağlayırsan? İstəmədim ki, bilsin. Dedim ki, ağlamamışam. Atası da dedi ki, qadınlar belədir. Kövrək olur, tez ağlayırlar. Dedi ki, ana, mən kimdən üstünəm ki?! Bir baxın, görün hər kəs gedir döyüşə, mən də getməliyəm. Hər şey qismətdir, alın yazısıdır. Həmin gecəni yatmadım. Geyim dəsti vermişdilər. Geyindi, əyin-başına baxdı, yuyunub, gedib yatdı. Səhər sübhdən oyatdım, yumurta salmışdım yağa, dedim bala, qalx yeməyini ye. Hazırlaşıb evdən çıxanda da bizimlə öpüşüb-görüşdü, amma demədi müharibəyə gedirəm. Qayıdıb evdən, masanın üzərindən şirni götürüb atdım arxasınca. Telefonla danışanda dedi ki, məni aparırlar təlimə. Telefonum olmayacaq, bir həftəyə kimi əlaqə yarada bilməsək, narahat olmayın. Bir-iki gün keçdi, daha heç əlaqə yarada bilmədik. Bizə müharibədə olduğunu qəti bildirmədi. Müharibəyə gedən günü – oktyabrın 17-si danışdıq, bir də 18-i. Oktyabrın 20-si də şəhid oldu. Yoldaşlarına da tapşırmışdı ki, heç kim bizə bildirməsin müharibədə olduğunu. Vüqar həmişə deyirdi: “Qarabağdan girib, Naxçıvandan çıxacağıq”.

# Bronxial-astmalı uşaqlar üçün Naxçıvan Duzdağ mağaraları ən effektli müalicə məkanıdır

*Dünya inkişafın yüksək mərhələsinə çatdıqca həyatımıza qatılan müsbət təsirlərlə bərabər, təəssüf ki, mənfi təsirlər də özünü göstərir. Demoqrafik artımla yanaşı, istehlakın kəskin artması, qlobal istiləşmə, atmosferin çirkləndirilməsi və digər amillər həm təbiətimizdə, həm də sağlamlığımızda müəyyən problemlərə yol açır, bir çox xəstəliklərin yaranmasına səbəb olur. Belə xəstəliklərdən biri də ölkəmizdə, eləcə də inkişaf etmiş bir çox dövlətlərdə milyonlarla insanın əziyyət çəkdiyi bronxial-astmadır.*



Bronxial-astma tənəffüs yollarının selikli qişasının xroniki iltihabi xəstəliyidir. Bu xəstəlik, əsasən, müxtəlif allergenlərə qarşı yüksək həssaslığı olan şəxslərdə təsadüf edilir. Təəssüflər olsun ki, böyüklərlə yanaşı, uşaqlarda da bu xəstəlik özünü göstərir. Coğrafi mühit, bitki tozcuqları, yaşayış və iş şəraiti, rütubət, kəskin temperatur dəyişiklikləri və sair bronxial-astmanın əmələ gəlməsinə şərait yaradır. Nadir bitki örtüyü, füsunkar təbiəti ilə gözoxşayan, Yaradanın möcüzələrini əsirgəmədiyi müqəddəs yurdumuz belə xəstəliklərin şəfa məkanıdır desək, yanılmarıq. Muxtar respublikamızda tənəffüs orqanları xəstəliklərinin müalicəsində ən effektiv məkan Naxçıvan Duzdağ mağaralarıdır. Naxçıvanımızın simvoluna çevrilən Duzdağ mağarasında 90 milyon ton təbii qaya duzu mövcuddur. Müalicəvi əhəmiyyətli duz mədənləri dəniz səviyyəsindən 1173 metr hündürlükdə, girişdən cəmi 300 metr aralıda, 110 metr dərinlikdə yerləşir. Bu mövzu ilə bağlı Azərbaycan Tibb Universitetinin Allerqologiya və immunologiya kafedrasının müdiri, Azərbaycan Allerqoloq və İmmunoloqlar cəmiyyətinin prezidenti, Azərbaycan Respublikasının Əməkdar elm xadimi, Əməkdar həkim, tibb elmləri doktoru, professor Lalə Allahverdiyeva 9-11 oktyabr tarixlərdə XI Avrasiya Uşaq Həkimlərinin "Uşaq və cəmiyyət: Sağlamlıq, inkişaf, qidalanma problemləri" adlı beynəlxalq konqresində çıxış edib. Biz bu barədə ətraflı məlumat almaq məqsədilə Lalə xanımla əlaqə saxladıq.

Bronxial-astmanın müalicə üsullarından bəhs edən Lalə xanım bildirdi ki, son illər bronxial-astmanın effektiv müalicəsinə baxmayaraq, bu qrup xəstələrin müalicəsində qeyri-medikamentoz müalicə üsullarına maraq daha da artmışdır. Onlardan biri də speleoterapiya üsuludur. Speleoterapiya üsulunun əsas müalicəvi təsiri duz mədənlərinin təbii mikroiqliminə əsaslanır. Azərbaycan da daxil olmaqla bir çox ölkələrdə duz mağaralarında speleoterapiya aparılır. Bu ölkələr sırasında Avstriya, Almaniya, Macarıstan, Polşa, Rumıniya, Rusiya, Belarusiya, Ukrayna, Qırğızıstan və başqalarının adlarını sadalamaq olar. Yeraltı duz mağaraları Azərbaycan da daxil olmaqla hazırda dünyanın cəmi 15 ölkəsində fəaliyyət göstərir.



Bu xəstəliyin müalicəsində mühüm rola malik olan Duzdağ mağaralarından bəhs edən müsahibimiz qeyd edir ki, Naxçıvan Duzdağ mağaralarının digər duz mədənlərindən, yəni şaquli yerləşən karst mağaralarından üstünlüyü onların üfüqi yerləşməsindədir. Bu isə təbii ventilyasiya və xəstələrin mikroiqlimin spesifik xüsusiyyətlərinə daha yüngül adaptasiyasını göstərir. Qeyd etmək lazımdır ki, kalsium və maqnezium ionları ilə zəngin olan karst mağaralarından fərqli olaraq Naxçıvan Duzdağ mağaralarında təbii duz aerozolunun tərkibində əhəmiyyətli dərəcədə (90 faizə qədər) xırda dispersli Na+ və Cl- respirabel hissəciklər var (1-5 mkm-ə qədər), hansılar ki, xüsusən kiçik, orta kalibrli bronxlara və alveollara bilavasitə keçərək öz yüksək terapevtik effektivliyini göstərir. Bu mağaralarda belə aerozolların və aeroionların inhalyasiyası bəlğəmin durulaşmasına və onun tənəffüs yollarından çıxarılmasına şərait yaradır, bronxların keçiriciliyini yaxşılaşdırır və onların mukosiliar klirensini və tənəffüs yollarının selikli qişasının qan axınını bərpa edir.

Mağaraların havasının təmiz olduğundan söz açan müsahibim diqqətimizə çatdırır ki, həmin mağaralarda havada karbon monooksid, metan və azot qazları, allergenlər, patogen mikroorqanizmlər və kif göbələkləri praktik olaraq yoxdur. Mağarada təmiz havanın qoxusu rahat nəfəs almaya imkan verir. Lalə xanım uzun müddət Duzdağ mağaralarında elmi-klinik tədqiqatlar apardıqlarını və bu tədqiqata 5-18 yaş arası yüngül və orta ağır atopik bronxial-astmalı 110 uşaq və yeniyetmənin cəlb olduğunu, bütün uşaqların mərhələli şəkildə speleoterapiya kursu aldığını və müsbət nəticələr əldə olduğunu bildirir. O qeyd edir ki, bu kurs 3 mərhələdən ibarətdir: adaptasion, əsas və readaptasion rejim. Adaptasion rejimə 2 gün müddətində hər gün 1-2 saat olmaqla gündüz saatlarında xəstənin yeraltı şöbədə qalması daxildir. Əsas rejimdə isə 2-5 yaş arası uşaqlar müalicəni valideynləri ilə birgə keçirir və 1-2 saatdan çox olmamaq şərti ilə orada qala bilirlər. 5-10 yaş arası uşaqlara 4 saat davam edən gündüz yuxusu, 10 yaş və yuxarı uşaqlara 9 saat davam edən axşam-gecə seansları təyin edilir. Readaptasion rejim xəstənin müalicəsinin qəflətən dayandırılmaması üçün son 2 gündə gündüz 1-2 saat olmaqla mağarada qalmaqdan ibarətdir. Bu "kəsmə sindromundan" qaçınmağa imkan verir. Sonda müalicənin nəticələrinin müsbət olduğunu söyləyən müsahibim, yüngül və orta ağır bronxial-astmalı uşaqların 70-80 faizində klinik yaxşılaşmanın müşahidə olunduğunu deyir. Naxçıvan Duzdağ mağaraları konstruksiyası, müalicəvi istirahət mühitinin mövcudluğu və bu mühitin dayanmadan regenerasiya xüsusiyyətlərinə görə ölkəmizin səhiyyəsinin ən unikal müalicəvi müəssisəsidir və onun dünya speleoterapiya təcrübəsində analoqu yoxdur.

Müsahibimiz bu müalicə məkanının unikallığını həm də onunla izah edir ki, buraya təkcə ölkəmizdən deyil, bir sıra xarici ölkələrdən gələnlərin sayı da günbəgün artır. Bu, bəhs etdiyimiz müalicə məkanının böyük imkanlarını ortaya qoymaqla yanaşı, həm də muxtar respublikamızda səhiyyə turizminin inkişafına öz töhfəsini verir.

✍ Türkanə ƏSƏDOVA



# SİMA tətbiqi ilə bilet almaq kimə faydalıdır?



## AZAL-a, yoxsa sadə sərnişinlərə



✍ Əli CABBAROV

Cəmiyyətimizdə elektron idarəetmənin tətbiq sahəsinin genişlənməsi ilə insanların çox sayda xidmətlərə çıxışı asanlaşmış, elektron cihazlardakı bir düyməyə toxunuşla lazım olan tələbatların ödənilməsi mümkün olmuşdur. Bəzi hallarda kiber hücumlara və texniki problemlərə məruz qalsa da, sürət, komfort və şəffaflığın təmin olunması baxımından elektron xidmətlərin cəmiyyətimizə inteqrasiyası sürətlə davam edir.

Bu baxımdan ölkəmizdə yeni nəsil gücləndirilmiş rəqəmsal imza olan "SİMA İmza" sistemi bulud və üztanıma texnologiyalarına əsaslanaraq bir çox məsələlərin həllində vətəndaşların və eləcə də müvafiq dövlət idarələrinin işini asanlaşdırır. Elə bu yaxınlarda da Naxçıvan-Bakı-Naxçıvan istiqamətində uçan təyyarələrə onlayn bilet almaq istəyən sərnişinlərə SİMA tətbiqi şərt qoyuldu. İlk baxışda bu bir yenilik kimi müsbət qiymətləndirilsə də, vətəndaşlar, eləcə də yerli turizm səyahətlərinin təşkilatçıları olan turoperatorlarla söhbətdən məlum oldu ki, heç də hamının SİMA-nın buradakı tətbiqinə münasibəti birmənalı deyil.

Əslində, SİMA tətbiqi digər başqa elektron xidmətlər üçün daha sadə və əlçatanlıq yaratsa da, AZAL-ın saytından bilet almaq istəyənlər üçün bu, bir keçiddən başqa bir şey deyil. Yayılan rəsmi açıqlamalara, eləcə də Naxçıvan şəhər aviakassasındakı əlaqəli şəxslərlə söhbətdən məlum oldu ki, bu keçidin mahiyyəti, sadəcə, bilet alınması zamanı şəffaflığın təmin olunması məqsədi güdür. Başqa sözlə, iddialara görə, AZAL-ın saytından, sadəcə, e-mail göstərməklə bəzi işbazların mövsümün sıx, biletlərin qıt vaxtında çox sayda adama bilet alıb, buna görə də pul qazana bilməməsi üçün SİMA tətbiqindən istifadə məqsədəuyğun sayılıb. Və bu açıqlamalarda sözügedən tətbiqin onlayn bilet alışını daha da sürətləndirəcəyi, bunun üçün hər kəsin öz smartfonuna bu tətbiqi quraşdırması və qeydiyyatdan keçməsi tələb edilir.

İndi sual olunur: Naxçıvan-Bakı hava yolu üzrə bilet əldə etmək üçün rayonlardan və uzaq kəndlərdən şəhərə gələ bilməyib, sadəcə, e-mail vasitəsilə kiməsə bilet almağı xahiş edən smartfonsuz (eləcə də SİMA işlətməyən) sadə vətəndaşlar necə olacaq? Yaxud zərf turlar tərkibində Naxçıvana səyahət etmək istəyən turistlərə toplu bilet almaq istəyən turfirmalar üçün görəsən nə düşünülüb? Bəlkə, Naxçıvana heç turist lazım deyil? Bir başqa sual: kim deyə bilər ki, sadəcə, e-mail vasitəsilə bilet ala bilməyib hansısa vicdansıza 5 manat ödəyən bir sakin bundan sonra onun üçün daha qəliz olan bu iş üçün həmin simasıza 15 manat ödəməli olmayacaq?! Cavabdan çox suallar vardır. Ona görə də düşünürəm ki, gəlin, onsuz da 30 ildir, bu yollarda əziyyət çəkən sadə naxçıvanlılar üçün işləri daha da çətinləşdirməyək, cəmiyyətimiz elektronlaşdıqca bunu bacarmayanlar üçün də qapıları açıq saxlayaq.

Bəs siz necə düşünürsünüz?!

## Babək rayonunun yaranmasının 46-cı ildönümü qeyd olunub




*Oktyabrın 23-də Babək rayonunun yaranmasının 46-cı ildönümü münasibətilə tədbir keçirilib.*

Əvvəlcə rayon İcra Hakimiyyəti, idarə, müəssisə və təşkilatların rəhbərləri Ümummilli Lider Heydər Əliyevin Babək şəhərində yerləşən abidəsini ziyarət edib, önünə gül dəstələri düzərək Ulu Öndərin əziz xatirəsinə ehtiramlarını bildiriblər. Rayon Mədəniyyət Sarayında davam edən tədbirdə əvvəlcə Ümummilli Lider Heydər Əliyevin və şəhidlərin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

İcra Hakimiyyətinin başçısı Ovni Muradov çıxış edərək bildirib ki, yaranmasının 46 illiyini qeyd etdiyimiz Babək rayonu Ulu Öndərimizin yadigarı kimi yaşayır və inkişaf edir. 1978-ci il oktyabrın 23-də xalq qəhrəmanı Babəkin adını daşıyan rayonun yaradılması Heydər Əliyev milli quruculuq strategiyasının nəticəsi kimi mühüm əhəmiyyətə malikdir. Rayona xalq qəhrəmanı Babəkin adının verilməsi milli yaddaşın, təfəkkürün bərpası, eləcə də tarixi keçmişimizə Ulu Öndər Heydər Əliyev tərəfindən verilən ən yüksək qiymətin ifadəsidir. Babək rayonu ötən müddətdə böyük inkişaf yolu keçərək ölkənin qabaqcıl rayonlarından birinə çevrilib.

Ovni Muradov çıxışında Babək rayonuna göstərilən yüksək dövlət qayğısına görə rayon əhalisi adından Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevə minnətdarlığını bildirib.

Sonra Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı Həbibə Allahverdiyeva və təqaüddə olan müəllim Ənvər Hüseynovun çıxışları dinlənilib, rayonun ictimai-siyasi həyatında fərqlənən şəxslər mükafatlandırılıb, Babək rayonu haqqında hazırlanmış videoçarxa baxış olub.

Tədbir bədii kompozisiya ilə davam edib.











# Mən tarixə həkk olunan yaddaşam, qoymaram ulu keçmiş yaddan çıxa!




**Mən tarixin yaddaşıyam! Ulu-ulu karvan keçmiş əsrlərin yol aldığı yoldaşıyam, sirdaşıyam! Günəş batsa, ulduz sönsə, ay axsa yer üzünə, göy üzünə həkk olunan bir tarixin haqq səsiyəm! Bir ulusun gəlmişini, keçmişini, addım-addım hər izini öz köksümdə gizləmişəm, qoymamışam silinməyə! Ana Vətən, Ata yurdu bərk-bərk qucan babaların sözçüsüyəm! Hər kəlməni daş üstündə qorumuşam! Hifz etmişəm! Mən Tanrının yer üzünə nəqş etdiyi bu diyarın müqəddəs torpaqlarında atılan hər addımın iziyəm! Ta qədimdən bu günədəkbir ulusun qocaman tarixinə cığır olan o yol mənəm! Mən tarixin özüyəm! Hər küncümdən, bucağımdan neçə-neçə yüzilliklər, minilliklər boylanır.**

Nuh tufanının şahidi olan daşların dili mənəm! Nuh Peyğəmbərin torpağa endiyi Gəmiqayadan danışıram, Uca Yaradanın ulu yurda bəxş etdiyi Duzdağ möcüzəsindən, Qazma mağarasından söhbət açıram. Gəmiqayadan qüdrət alan Əshabi-kəhf tarixinin minilliklərinin şahidi də elə mənəm! Bərəkətli diyarın əməksevər insanlarının zəhmət izləri həkk olunan əmək alətləri, məişət əşyalarının canlı mənzərəsiyəm. Neçə-neçə minilliklərə qədər aparan kiçik bir səyahətdə o əsrlərdə yaşayan insanların təfəkkür, dünyagörüşü və zövqünün xəbərçisiyəm. İsmətli gəlinlərin, nazlı qızların zinəti gizlənir məndə, mən bəzəyəm... İgidlərin qılıncıyam, düşmənlərə sipər olan qalxanıyam. Anaların gözlərinin nuruyla ilmələnən xalçaların naxışıyam! Ata-babalarımızın zəhmətdən qabarlanan əlləriylə bərəkətlənən torpağın sevdasıyam! Dağı-daşı lərzəyə gətirən Naxçıvan yallılarının bəzəyi olan tulumun, balabanın, neyin, qara zurnanın sədasıyam! Həqiqətin güzgüsüyəm, ulu yurdun şanlı tarixini əks edirəm! Nənələrin, babaların ocağının sönməyən çırağıyam! Keçmişə işıq salan! Hey dolanır azad ruhu uluların qoynumda... Mən onların sorağıyam, səsiyəm...

Dövlətçilik tariximizin Atabəylərindən, Qaraqoyunlularından, Ağqoyunlularından, Səfəvilərindən, Naxçıvan xanlıqlarından bu günə miras qalan dəyərlərin bənzərsiz ərmağanıyam!

100 illik muxtariyyətimizlə yaşıdam mən! Bir əsrə şahidlik edərkən köksümə sığınan minilliklərin saxlanc yeriyəm! Ulu tarixin canlı salnaməsi, daş kitabəsiyəm! Gələcək nəsillər addımladıqca qoynumda baxıb fərəhləndiyi, öz keçmişiylə öyündüyü ata-baba yadigarı, Vətən, torpaq, yurd eşqiyəm!

✍ Gülcamal TAHİROVA



## Hüseyn Cavid anadan olmasının 142-ci ildönümündə yad edilib



*Oktyabrın 24-də Naxçıvan Muxtar Respublikası Mədəniyyət Nazirliyinin təşkilatçılığı ilə keçirilən tədbirin iştirakçıları əvvəlcə Naxçıvan şəhərində Hüseyn Cavid məqbərəsini ziyarət edib, məzarının üzərinə tər gül dəstələri qoyublar. Hüseyn Cavidin ev-muzeyi və xatirə kompleksində gerçəkləşən tədbirdə mədəniyyət və ədəbiyyat nümayəndələri iştirak ediblər.*

Tədbiri giriş sözü ilə açan Naxçıvan Muxtar Respublikası mədəniyyət nazirinin müavini, nazir vəzifələrini müvəqqəti icra edən Həsən Seyidov Hüseyn Cavidin Azərbaycan ədəbiyyatının, mədəniyyətinin, teatrının inkişafındakı misilsiz xidmətlərindən danışıb, görkəmli dramaturqun bənzərsiz yaradıcılığı və bütöv, əyilməz şəxsiyyəti ilə özündən sonrakı ədəbi nəsillərə bir nümunə olduğunu bildirib.

Vurğulanıb ki, görkəmli dramaturqun yaradıcılığına və şəxsiyyətinə ən layiqli qiymət xalqımızın Ümummilli Lideri Heydər Əliyev tərəfindən verilib. Ulu Öndərin rəhbərliyi ilə Hüseyn Cavidin 100 illik yubileyinin keçirilməsi və cənazəsinin Uzaq Sibirdən tapılaraq Azərbaycana gətirilməsi haqqında qərar qəbul edilib.

Sonra Naxçıvan Muxtar Respublikası Yazıçılar Birliyinin sədri, Azərbaycan Respublikasının Əməkdar mədəniyyət işçisi Asim Əliyev Hüseyn Cavidin həyat və yaradıcılığından danışıb.

Tədbir AMEA Naxçıvan Bölməsinin əməkdaşı Aytən Cəfərova və Hüseyn Cavidin ev-muzeyinin və xatirə kompleksinin direktoru Tünzalə Dilanovanın çıxışları ilə davam edib.

Tədbirin bədii hissəsində C.Məmmədquluzadə adına Naxçıvan Dövlət Milli Dram Teatrının aktyorlarının ifasında Hüseyn Cavidin əsərlərindən hissələr səsləndirilib.

Sonda muzeyin ekspozisiyasına baxış olub.

## Qərbi Azərbaycanla bağlı intellekt yarışı təşkil olunub

Oktyabrın 23-ü Gənclər Mərkəzində Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin tərəfdaşlığı ilə "Gənclərin Sosial-İqtisadi və Mədəni İnkişafına Dəstək" İctimai Birliyi tərəfindən "Qərbi Azərbaycana dönüş prosesində gənclərin fəallığının artırılması" qrant layihəsi çərçivəsində "Nə? Harada? Nə zaman?" intellektual oyunu keçirilib. Oyuna Hərbi Kollecin kursantları da olmaqla, 9 komanda qatılıb.

Diskussiya formatında davam edən tədbirdə gənclər mövzu ilə bağlı fikirlərini ifadə edib, onları maraqlandıran məsələlər ətrafında müzakirələr aparıblar.

Sonra intellektual oyuna start verilib. İlk üç yerin sahiblərinə diplom təqdim olunub.



### İtmişdir

Babək rayonu, Zeynəddin kəndində Seyidov Yamən M.Həbib oğlunun adına olan JN-796$^{A}$ nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

***

Şərur rayonu, Cəlilkənddə yaşamış Mənsimov Əli Mənsim oğlunun adına olan JN-305$^{A}$ nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

***

Kəngərli rayonu, Çalxanqala kənd sakini Şahhüseynov Rəsul Allahverdi oğlunun adına olan JN-740$^{A}$ nömrəli, 10300018 kodlu "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

***

Babək rayonu, Nehrəm qəsəbə sakini Əsgərov Ələkbər Cəfər oğluna məxsus olan JN-1344$^{A}$ nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

***

Şərur rayonu, Çərçiboğan kənd sakini Zamanova Narıngül İbrahim qızının adına olan JN-35$^{A}$ nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

***

Sədərək rayonu, Dəmirçi kəndində yaşamış Cəfərov Bəylər Oruc oğlunun adına olan JN-310 nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

***

Şərur rayonu, Zeyvə kəndində yaşamış Əhmədov Vladimir Paşa oğlunun adına olan JN-1018 nömrəli, 10206005 kodlu dövlət aktı, JN-474$^{A}$ nömrəli, 10206005 kodlu "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

***

Naxçıvan şəhəri, 52-ci məhəllə, ev 30-da yaşayan Əsgərova Gülnaz Ələsgər qızının adına olan evin 10706 nömrəli texniki pasportu itdiyindən etibarsız sayılır.

ŞƏRQ QAPISI

Baş redaktor: SARA ƏZİMOVA

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 14.

Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: info@serqqapisi.gov.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır
Vöen: 0200065441

Çapa imzalanmışdır 00:00
Tiraj: 1000. Sifariş № 320

Nömrəyə məsul: Aidə İbrahimova, Gülcamal Tahirova, Nail Əsgərov
Dizayner: Lətif Zeynalov

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.